DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

# CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 04 (378) / APREL 2023-CÜ İL




Bu gün mən buradayam. Bu, bir daha onu göstərir ki, Türkiyə və Azərbaycan hər zaman bir yerdədir. Türkiyə və Azərbaycan dost, qardaş ölkələrdir.

Eyni zamanda, iki il bundan öncə Şuşa Bəyannaməsinin imzalanması ilə Türkiyə və Azərbaycan rəsmən müttəfiq oldular. O tarixi Bəyannamənin Qarabağın tacı olan Şuşada imzalanmasının xüsusi önəmi var. Şuşa Azərbaycan xalqının əziz şəhəridir, Türk dünyasının əziz şəhəridir. Şuşanın işğaldan azad edilməsi nəticəsində Azərbaycan öz ərazi bütövlüyünü bərpa etmişdir. Türkiyə, onun Cümhurbaşqanı, qardaş türk xalqı daim bizim yanımızda idi.

...Türkiyə son 20 il ərzində böyük və şərəfli yol keçmişdir. Hörmətli Cümhurbaşqanının liderliyi ilə Türkiyə dünya çapında söz sahibinə çevrilmiş, bizim bölgəmizdə sülhün, sabitliyin, təhlükəsizliyin qarantıdır. Türkiyə böyük Türk dünyasının birləşməsi işində çox böyük rol oynadı. Ötən ay türk dövlətlərinin Ankarada keçirilmiş Zirvə toplantısında da bütün türk dövlətləri əziz qardaşıma öz dəstəyini, öz hörmətini və bizim ümumi həmrəyliyimizi bildirmişdir. Türk dünyasının böyük coğrafiyası, böyük potensialı, böyük təbii qaynaqları, böyük hərbi gücü var. Türk dünyasının birləşməsində Rəcəb Tayyib Ərdoğanın Türk dünyası qarşısında tarixi xidmətləri vardır.

Bu gün Türkiyə Avrasiyanın ticarət, enerji, nəqliyyat, siyasi mərkəzidir. Gündəngünə Türkiyənin önəmi, rolu artır. Türkiyənin güclü sənayesi həm Türkiyəni gücləndirir, həm də Türkiyənin müttəfiqlərini gücləndirir. Türk Ordusu bu gün dünya çapında ən öndə olan orduların sırasındadır. Türkiyənin müdafiə sənayesi bu gün bütün dünya tərəfindən qəbul edilir. Ən inkişaf etmiş, ən çağdaş, ən modern müdafiə sənayesi həm Türkiyəni, həm bizi gücləndirir və uzun illər bundan sonra Türkiyənin təhlükəsizliyini təmin edəcəkdir.

Bu gün "TEKNOFEST"də iştirak edərkən "TEKNOFEST"in qurucusu, əziz qardaşımız Selçuk Bayraktarın xidmətlərini də qeyd etmək istərdim. Selçuk bəy Azərbaycanda dəfələrlə olmuş, o cümlədən azad edilmiş torpaqlarda, Şuşada. Son gəlişində - aprelin 3-də Azərbaycanda olarkən biz gələcək işbirliyi haqqında danışdıq və Azərbaycanda "Bayraktar" mərkəzinin yaradılması haqqında razılığa gəldik. İnşallah, yaxın gələcəkdə Azərbaycanda "Bayraktar" mərkəzi yaradılacaq, orada təhsil, xidmət, istehsal da olacaqdır. Selçuk bəy Bakıda olarkən "Kızılelma"nın bir maketini hədiyyə etdi. Mən fürsətdən istifadə edərək "Kızılelma" ilə bağlı bütün qardaşlarımızı təbrik etmək istəyirəm və ümid edirəm ki, yaxın gələcəkdə "Kızılelma" Azərbaycanın səmasında da olacaqdır. "Kızılelma" havada, "Altay" və "Togg" quruda, "Anadolu" dənizdə - bugünkü Türkiyə budur.

Bir neçə gündən sonra Azərbaycan xalqı çağdaş Azərbaycan dövlətinin banisi, qurucusu Heydər Əliyevin 100 illiyini qeyd edəcək. Heydər Əliyev demişdir: "Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir". Bu gün biz bunu sübut edirik. Bu gün bütün atalarımızın, əcdadlarımızın ruhu şaddır. Çünki Türkiyə və Azərbaycan bir yerdədir. Atam demişkən, "Bir millət, iki dövlət", əlavə də etmək istəyirəm, "Bir yumruq!".

**Prezident İlham Əliyev**
"TEKNOFEST" festivalındakı çıxışından
İstanbul, 29 aprel 2023-cü il

## "DİN VƏ QLOBAL TƏHLÜKƏSİZLİK" KİTABININ TƏQDİMATI OLUB



Səh. 3

## ŞƏHİD AİLƏLƏRİ VƏ QAZİLƏR ÜÇÜN İFTAR SÜFRƏSİ AÇILIB



Səh. 4

## "MÜASİR ÇAĞIRIŞLAR VƏ QARŞIDA DURAN ƏSAS HƏDƏFLƏR"



Səh. 5-6

## DQİDK NÜMAYƏNDƏLƏRİ HƏRBİ QULLUQÇULARLA GÖRÜŞÜB



Səh. 12

# PREZİDENT İLHAM ƏLİYEV VƏ BİRİNCİ XANIM MEHRİBAN ƏLİYEVA NƏRİMANOV RAYONUNDA "CÜMƏ" MƏSCİDİNİN AÇILIŞINDA İŞTİRAK EDİBLƏR

Aprelin 20-də Bakının Nərimanov rayonunda dövlətimizin başçısının təşəbbüsü ilə aparılan əsaslı təmirdən və rekonstruksiyadan sonra "Cümə" məscidinin açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər.

Bu gün multikultural ənənələri, tolerant mühiti, İslam dünyası daxilində həmrəyliyin möhkəmlənməsi istiqamətində atdığı tarixi addımları qlobal miqyasda maraqla qarşılanan Azərbaycanda müxtəlif dinlərin, o cümlədən İslam dini abidələrinin qorunmasına xüsusi diqqətlə yanaşılır. Son dövrlərdə yeni məscidlərin tikilməsi və ya əsaslı təmiri də bu yanaşmanın təzahürüdür.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın müqəddəs Ramazan bayramı ərəfəsində "Cümə" məscidinin açılışında iştirak etmələri həm də rəmzi məna kəsb edir.



Qeyd edək ki, "Cümə" məscidi 1998-ci ildən fəaliyyətə başlayıb. İllər ötdükcə bina tədricən qəzalı vəziyyətə düşüb. Prezident İlham Əliyevin təşəbbüsü ilə 2021-ci ildə bu məsciddə əsaslı təmir və yenidənqurma işlərinə başlanılıb. İşlər yüksək səviyyədə həyata keçirilib və bu ilin aprel ayında başa çatdırılıb.



Qəzalı vəziyyətdə olan iki minarə aparılan işlər çərçivəsində sökülərək yenidən tikilib, məscid binasında bərpa-gücləndirmə işləri yerinə yetirilib, dəstəmazxana binası inşa olunub, zəruri infrastruktur yaradılıb.

Eyni vaxtda 600-ə yaxın insanın ibadət edə biləcəyi məscidin birinci mərtəbəsi kişilər, ikinci mərtəbəsi isə qadınlar üçün nəzərdə tutulub.

Burada yaradılan şərait bir daha təsdiqləyir ki, milli-mənəvi dəyərlərimizin qorunması və inkişaf etdirilməsi Prezident İlham Əliyevin daim diqqət mərkəzindədir. Dövlətimizin başçısının təşəbbüsü və tapşırıqlarına əsasən, paytaxtda və ölkəmizin bölgələrində onlarla məscid, dini məbəd, tarixi abidə və ziyarətgah inşa edilib, bərpa olunub və ya yenidən qurulub. Bu istiqamətdə görülən işlərə Heydər Əliyev Fondu da sanballı töhfələr verib.

Nərimanov rayonundakı "Cümə" məscidində aparılan əsaslı təmir və yenidənqurma işləri də ölkəmizdə milli-mənəvi dəyərlərin qorunması ilə bağlı görülən işlərin ardıcıl xarakter aldığını göstərir.

# RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Sizi müqəddəs Ramazan bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza ən xoş arzu və diləklərimi yetirirəm.

Bəşər övladını əxlaqi paklığa, humanizmə, birlik və bərabərliyə dəvət edən, insanların ruhunu və mənəviyyatını saflaşdıran mübarək Ramazan ayında müsəlmanlar Uca Yaradan qarşısında öz borcunu layaqətlə yerinə yetirmək fürsəti əldə edir, mənəvi kamilliyin və savab əməllərin sevincini yaşayırlar.

İslam sivilizasiyasının tarixi-mədəni mərkəzlərindən olan Azərbaycanda Ramazan bayramı hər il böyük təntənə ilə keçirilir, xalqımızın və dövlətimizin firavanlığı, əmin-amanlığı üçün dualar edilir, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən qəhrəman Vətən övladlarının xatirəsi dərin ehtiramla yad olunur.

Əziz bacı və qardaşlarım!

Cəmiyyətimizdə vəhdəti və həmrəyliyi daha da gücləndirən, xeyirxahlığın, şəfqət və mərhəmət duyğularının təntənəsinə çevrilən on bir ayın sultanı Ramazan ayı başa çatır. Bu mübarək bayram münasibətilə bir daha hər birinizə və ölkəmizin hüdudlarından kənarda yaşayan bütün soydaşlarımıza səmimi təbriklərimi çatdırır, ailələrinizə xoşbəxtlik, süfrələrinizə xeyir-bərəkət arzulayıram.

Allah orucunuzu, dua və niyyətlərinizi qəbul etsin.

Ramazan bayramınız mübarək olsun!

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 19 aprel 2023-cü il

# AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

Hörmətli həmvətənlər!

Sizi müqəddəs Pasxa bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza ən səmimi arzu və diləklərimi yetirirəm.

Yüz illər boyu burada məskunlaşıb yaşayan hər kəs üçün doğma Vətən olan Azərbaycanda bu gün də müxtəlif etnik qrupların və etiqadların nümayəndələri sülh, əmin-amanlıq, qarşılıqlı hörmət və etimad şəraitində yaşayırlar. Ölkəmizdə xalqlararası dostluğun və dinlərarası harmoniyanın qorunması, yüksək birgəyaşayış mədəniyyətinin və demokratik ictimai-mənəvi dəyərlərin təşviqi, qlobal miqyasda sivilizasiyalararası dialoqun təbliği mütərəqqi milli-tarixi ənənəyə əsaslanan dövlət siyasətimizin başlıca istiqamətlərindən biridir.

Dünyada multikulturalizmin ünvanlarından biri kimi tanınan müasir Azərbaycan Respublikasında bütün etnik və dini azlıqlara, o cümlədən xristian icmasına öz milli-mənəvi dəyərlərindən lazımınca faydalanmaq, adət-ənənələrini, dil və mədəniyyətini yaşatmaq üçün geniş imkanlar yaradılmışdır. Təqdirəlayiq haldır ki, belə demokratik və tolerant mühitdə fəaliyyət göstərən pravoslav inanclı vətəndaşlarımız digər etiqadların mənsubları ilə birgə ictimai-siyasi həyatımızın bütün sahələrində yaxından iştirak edir, müstəqil dövlətimizin hərtərəfli inkişafına layiqli töhfələr verirlər.

Əziz həmvətənlər!

Pasxa bayramı dirçəlişin, yeniliyin, mərhəmət və şəfqət duyğularının rəmzidir. Bu əziz gün münasibətilə bir daha hər birinizə səadət, ailələrinizə xoş bayram ovqatı və firavanlıq arzulayıram.

Bayramınız mübarək olsun!

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 14 aprel 2023-cü il

# "DİN VƏ QLOBAL TƏHLÜKƏSİZLİK" KİTABININ TƏQDİMATI OLUB

Aprelin 6-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədr müavini Səyavuş Heydərovun "Din və qlobal təhlükəsizlik" kitabının təqdimat mərasimi keçirilib. Azərbaycan İlahiyyat İnstitutunda (AİI) baş tutan tədbirdə DQİDK və AİI-nin rəhbər şəxsləri, millət vəkilləri, dini icma sədrləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Əvvəlcə Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizədə canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

AİI rektoru, dosent Aqil Şirinov açılış nitqi ilə çıxış edərək bildirib ki, xüsusilə XX əsrdən etibarən dünyanın müxtəlif bölgələrində din təkcə mənəviyyat mövzusu deyil, həm də təhlükəsizlik mövzusu olaraq önə çıxmağa başlayıb. O qeyd edib ki, İslam başda olmaqla heç bir din insanları zorakılığa, terrora sövq etmir, əksinə, sülhə dəvət edir. Dinlərin səhv interperetasiyasının radikal qruplaşmaların ortaya çıxmasının səbəblərindən biri olduğunu vurğulayan A.Şirinov İslam dünyasında da belə qrupların daha çox XX əsrdən etibarən yarandığını diqqətə çatdırıb. Bu qrupların yaranmasının müxtəlif səbəblərinin olduğunu qeyd edib.

Din pərdəsi altında ölkəmizə qarşı məkrli siyasət aparan xarici qüvvələrdən bəhs edən A.Şirinov bu güclərin öz niyyətlərinə çatmayacaqlarını, xalqımızın belə yad ünsürlərə qarşı immunitetli olduğunu vurğulayıb. Daha sonra AİI rektoru "Din və qlobal təhlükəsizlik" kitabı haqqında fikirlərini bölüşüb.

DQİDK sədri Mübariz Qurbanlı çıxışında "Din və qlobal təhlükəsizlik" adlı kitabın nəşrini zəruri edən amillərdən danışıb. Bildirib ki, kitabda qaldırılan məsələlər müasir dünyada baş verən hadisələr fonunda çox böyük əhəmiyyət daşıyır. Dövlət Komitəsi və Mənəvi Dəyərlərin Təbliği Fondu tərəfindən maarifləndirmə məqsədilə müxtəlif mövzularda, o cümlədən ölkəmizdə mövcud olan dövlət-din münasibətləri haqqında kitablar nəşr etdirilir. Eyni zamanda Komitənin və Fondun sifarişi ilə çəkilən, kütləvi informasiya vasitələri, sosial media platformaları vasitəsilə geniş auditoriyaya təqdim olunan film və videoçarxlarda dini radikalizm və ekstremizmin fəsadları, vəhdətin önəmi, milli-mənəvi dəyərlərə sadiqlik, azərbaycançılıq ideologiyasının təbliği və təşviqi öz əksini tapır.

Dövlət Komitəsinin sədri qeyd edib ki, Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra və dövlət quruculuğu illərində qarşıda duran əsas məsələlərdən biri dövlətin din siyasətinin əsas istiqamətlərinin müəyyən edilməsi idi. Ulu Öndər siyasi hakimiyyətə qayıtdıqdan sonra ölkənin gələcək inkişafının strateji hədəfləri, dövlət quruculuğu məsələləri geniş müzakirə olunaraq Azərbaycanın Konstitusiyası hazırlandı və qəbul edildi. Azərbaycanın dünyəvi dövlət olmasının Konstitusiya ilə təsbiti dövlət-din münasibətlərinə aydınlıq gətirdi. Ölkədə dinin dövlətdən ayrı olmasına baxmayaraq, dövlət dini himayə edir. Konfessiyalar arasında fərq qoyulmadan dini ibadət yerləri həm dövlət, həm də Heydər Əliyev Fondunun xətti ilə təmir-bərpa edilir, yeniləri tikilir. Hər il Prezident cənab İlham Əliyev tərəfindən dini icmaların fəaliyyətinə dəstək göstərilməsi üçün maddi yardım ayrılır. Dövlət başçısı Prezident İlham Əliyev və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva xüsusi qayğı və həssaslıqla hər zaman dini sahəni diqqətdə saxlayırlar.



M.Qurbanlı Azərbaycanın multikultural və tolarant dəyərlərin hakim olduğu, müxtəlif xalqların, dini konfessiyaların bərabərhüquqlu və qarşılıqlı hörmət şəraitində, birgəyaşayış ənənələrinə uyğun yaşadığı nümunəvi dövlətlərdən biri olduğunu vurğulayıb. Qeyd edib ki, Azərbaycan vəhdət namazlarının əhəmiyyətini təşviq edən müsəlman ölkəsidir. Ölkəmizdə cümə günləri məscidlərdə vəhdət namazlarının icra olunması ənənə halını alıb və Bakı şəhərində yerləşən, Cənubi Qafqazın ən böyük məscidi olan Heydər məscidində bunun ən gözəl nümunəsini görmək mümkündür.



Bütün bunlar, eləcə də qlobal təhlükəsizlik fonunda Azərbaycanda baş verən hadisələr bu gün təqdimatı keçirilən kitabda öz əksini tapıb. Azərbaycanın zərərli dini cərəyanlara, dindən istifadə edərək bölücülük, təfriqə, dini radikalizm, düşmənçilik yaymaq istəyən qüvvələrə qarşı vahid ideoloji xətti və siyasi kursu mövcuddur. Azərbaycançılıq ideologiyası və dövlətin milli-mənəvi dəyərlərə söykənən siyasət yürütməsi bu gün hansısa zərərli dini və siyasi düşüncənin cəmiyyətdə kök salmasına imkan vermir. Ölkəmizdə milli ruhlu, vətənpərvər, dövlətçiliyə bağlı dini kadrlar hazırlanır. Prezident cənab İlham Əliyevin Sərəncamı ilə Azərbaycan İlahiyyat İnstitutunun yaradılması çox böyük tarixi hadisədir. Gələcəkdə institutun yetişdirdiyi ali təhsilli din xadimləri ölkəmizdə din adı altında hansısa xarici dövlətin dövlət-din münasibətləri modelinin formalaşması istiqamətində atacağı addımların qarşısını ala biləcək gücə çevriləcəklər.

Dövlət Komitəsi sədrinin müavini Səyavuş Heydərov bildirib ki, mövcud mənəvi böhranın aradan qaldırılması və bəşəriyyətin təhlükəsizliyinin təminatı məqsədilə qlobal mahiyyətli konsepsiyalara yenidən baxılması, onların icrasına məsul təsisatların ədalət prinsipinə sadiq qalmaqla gücləndirilməsinin vacibliyi bütün aşkarlığı ilə üzə çıxır. Bunlar dünya ictimaiyyətindən kollektiv məsuliyyətin artırılmasını tələb edir. Artıq "Günahkar kimdir?" sualı əvəzinə "Nə etməliyik?" sualına cavabın tapılmalı olduğunu vurğulayan S.Heydərov radikalizm, ekstremizm və terrorizmin qarşısını almağın yollarından birinin də din haqqında anlayışların modern dünyanın tələblərinə və çağırışlarına adekvatlaşdırılmasından keçdiyini deyib. Sədr müavini əlavə edib ki, dinin sabit, dəyişməz prinsiplərini adət-ənənələr və siyasi proseslər nəticəsində dinə hopmuş, dini hökmlər kimi insanlara sırınmağa çalışılan xüsusiyyətlərdən ayırd etmək vacibdir. Bu baxımdan biz "Din nədir? Onun funksiyası və məqsədi nədir?" kimi sualları cavablandırmağa çalışmalıyıq. Əgər insanlıq inkişaf edirsə və dəyişiklik inkişaf qanunauyğunluğunun tələbidirsə, o zaman bizim baxışlarımız necə olmalıdır? İnsanın həyatı onun mənəvi, intellektual inkişafı və xoşbəxtliyi tarixin hansısa dövründə yad təsirlərlə doqmalaşmış baxışlara necə qurban verilə bilər? Bu suallara cavab tapsaq, qloballaşmanın sivilizasiyaların toqquşmasına deyil, ümumdünya sülhünün bərqərar olmasına yönəldilməsinə daha çox töhfə vermiş olarıq.

Milli Məclisin deputatı, professor Anar İsgəndərov əsərin aktual məsələləri ehtiva etdiyini, təhlükəsizliyin cəmiyyətimizin hər bir fərdi üçün vacib məsələ olduğunu diqqətə çatdırıb. Ölkəmizdə dinlərarası, eyni zamanda məzhəblərarası münasibətlərin, milli-mənəvi dəyərlərimizin qorunub-saxlanılmasının önəmli olduğunu bildirən A.İsgəndərov AİI-nin yetişdirdiyi yüksəkixtisaslı gənc mütəxəssislərin üzərinə düşən vəzifələri qeyd edib.

Deputat Ceyhun Məmmədov qlobal təhlükəsizliyin vacibliyi məsələsinə toxunub. Bildirib ki, hazırda din pərdəsi altında Azərbaycana qarşı edilən təhdidlərə qarşı birgə mübarizə vacibdir. Son proseslər bir daha göstərdi ki, Azərbaycan gənci davamlı olaraq müxtəlif təhdidlərlə, zərərli və zəhərli ideologiyalarla üz-üzədir. Bu özünü təkcə dini fəaliyyət sahəsində deyil, digər sahələrdə də açıq göstərir. Bu gün həm Şərqin, həm də Qərbin Azərbaycan gəncliyi ilə bağlı çox ciddi və məkrli planları var. Bütün bunlar ölkəmizin gənclər siyasətinə yenidən baxılmasını, bu cür təhdidlərə qarşı yeni strategiyaların və konsepsiyaların hazırlanmasını labüd edir. Məktəblərimizdə, məscidlərimizdə, kinoteatrlarımızda, televiziyalarımızda, mediamızda və idman klublarımızda milli-mənəvi dəyərlərimizin qorunması və təbliği işinə xüsusi həssaslıqla yanaşılmalı, davamlı geniş maarifləndirmə və təbliğat işləri aparılmalıdır.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin nümayəndəsi Araz Qurbanov "Din və qlobal təhlükəsizlik" kitabı haqqında fikirlərini bölüşüb. Qeyd edib ki, müəllif əsərə milli təhlükəsizlik müstəvisində yanaşıb və problemlərin aradan qaldırılması üçün tövsiyələrini verib. A.Qurbanov dini təhlükəsizliyin vacibliyi, ölkəmizdə mövcud tolerant mühitin qorunması istiqamətində fikirlərini bildirib.

Azərbaycan Respublikasında Katolik Kilsəsinin Apostol Prefekturasının yepiskopu Vladimir Fekete, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının nümayəndəsi Elnur Əfəndiyev, Alban-Udi Xristian dini icimasının sədri Robert Mobili və Azərbaycan Bəhailəri Dini Mərkəzinin katibi Ramazan Əsgərli çıxış edərək bildiriblər ki, kitabda çoxkonfessiyalı ölkəmizin timsalında dinin dövlətin milli təhlükəsizliyinin möhkəmlənməsinə verə biləcəyi töhfələr parlaq şəkildə ifadə edilib. Azərbaycan kimi çoxmillətli və çoxkonfessiyalı dövlət üçün dini təhlükəsizlik məsələlərinin önəmini, xarici təhdidlər qarşısında xalqın həmrəyliyinin vacibliyini, dinindən, milliyyətindən asılı olmayaraq hər bir vətəndaşın diqqətli və məsuliyyətli davranmalı olduğunu vurğulayıblar. Qeyd ediblər ki, Azərbaycan xalqı bir sıra tarixi kataklizmlərdən keçərək, bugünkü uğurlarının əsasında özünəməxsus və zəngin mədəniyyət yaradıb. Qədim zamanlardan müxtəlif dini və etnik mənşəli insanların yan-yana yaşamasının səbəbi Azərbaycan mənəviyyatının unikallığıdır.

Qeyd edək ki, dörd fəsildən ibarət olan kitab beynəlxalq və regional münasibətlər sistemində din amili, bəşəriyyətin yeni kabusu – dini radikalizm, din və qlobal təhlükəsizlik kontekstində dinlərarası və mədəniyyətlərarası dialoq mövzularını əhatə edir.

# ŞƏHİD AİLƏLƏRİ VƏ QAZİLƏR ÜÇÜN İFTAR SÜFRƏSİ AÇILIB



Aprelin 13-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun maliyyə dəstəyi, Binəqədi Rayon İcra Hakimiyyəti (RİH), "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyi və Bakı şəhəri Xəzər rayonu Binə qəsəbəsi Hövsan südçülük sovxozu "İmam Həsən" məscidi dini icmasının birgə təşkilatçılığı ilə "Heydər" məscidində müqəddəs Ramazan ayı münasibətilə şəhid ailələri və qazilərə iftar süfrəsi açılıb.

İftar mərasimində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Binəqədi RİH-in başçısı Elxan Allahverdiyev, Milli Məclisin deputatları Azay Quliyev və Kamaləddin Qafarov, Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov, "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri Sevinc Alizadə, şəhid ailələrinin üzvləri və qazilər iştirak ediblər.

Mərasim müqəddəs Qurani-Kərimin tilavəti ilə başlayıb.

Daha sonra Mehman İsmayılov çıxış edərək, müqəddəs Ramazan ayı münasibətilə tədbir iştirakçılarını təbrik edib. Bildirib ki, Ramazan bayramı insanları gözəl əməllərə dəvət edir, onları yer üzündə sülhün, əmin-amanlığın və qardaşlığın bərqərar olması naminə birgə səylər göstərməyə çağırır.

Tədbirdə digər çıxış edənlər Ramazan ayının mənəvi paklıq, mərhəmət və şəfqət ayı olmasını qeyd ediblər. Bildirilib ki, şəhid ailələrinə, qazilərə diqqət və qayğı



dövlətimizin siyasətinin vacib istiqamətlərindən biridir. Natiqlər dövlət başçısının şəhid ailələri və qazilərə olan diqqəti, dövlətin bu sahəyə olan qayğısından məmnunluqla bəhs ediblər.

Daha sonra ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canından keçən qəhrəman şəhidlərimizin ruhuna dualar oxunub.

# DÖVLƏT KOMİTƏSİNDƏ GÖRÜŞLƏR



Aprelin 14-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) tərəfindən 13-15 fevral 2023-cü il tarixində İslam dininə aid ibadət yerlərində qadın dini ayinlərin icraçısı vəzifəsinin tutulması üçün keçirilmiş müsahibədə iştirak edən və uğur qazanaraq təyinat almış bir qrup qadın dini ayinlərin icraçıları ilə görüş keçirilib.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı ölkədəki dini durum, dövlətin dini abidələrə və din xadimlərinə göstərdiyi yüksək diqqət və qayğısından bəhs edib. Dini ayin icraçılarına müvafiq tövsiyələr verərək, fəaliyyətlərində Azərbaycan reallığı və ölkəmizin tarixi dini ənənələrinin əsas götürülməsinin vacibliyini diqqətə çatdırıb. M.Qurbanlı dini mərasimlər zamanı islami dəyərlərin olduğu kimi təbliğ edilməsinin vacibliyini vurğulayıb.

Daha sonra qadın dini ayinlərin icraçılarının fikirləri və təklifləri dinlənilib, onları maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, görüşdə iştirak edən qadın dini ayin icraçıları Dövlət Komitəsi sədrinin müvafiq əmri ilə Saatlı rayonu "Varxan" kənd, Quba şəhəri "Cümə", Siyəzən şəhəri "Cümə", Ağdaş şəhəri "Hacı Məhəmməd" və Zaqatala şəhəri "Cümə" məscidlərinə təyin olunublar.

Bundan öncə təyinat almış 10 nəfər qadın dini ayin icraçısı artıq respublikamızın müxtəlif şəhər və rayonlarında yerləşən məscidlərdə fəaliyyət göstərir.

***

Aprelin 17-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov "Həyat sözü" Beynəlxalq Assosiasiyasının İdarə Heyətinin sədri Kristian Akerhielm ilə görüşüb.

Qonağı salamlayan S.Heydərov ölkəmizdəki dinlərarası harmoniya, birgəyaşayış mühitinin önəmi barədə məlumat verərək dövlətin dini sahədə apardığı uğurlu siyasət nəticəsində tolerant dəyərlərin ictimai həyatda öz təsdiqini tapdığını, dini müxtəlifliyin təmin olunduğunu diqqətə çatdırıb.

Azərbaycanın bu sahədə öz təcrübəsini bölüşməyə hazır olduğunu qeyd edən sədr müavini bildirib ki, dünya birliyi vahid iradə nümayiş etdirərək sülhün və əmin-amanlığın qorunmasına strateji vəzifə kimi yanaşmalı, islamofobiya, irqçilik, ksenofobiya və dini ayrı-seç-



kilik hallarına qarşı qətiyyətli addımlar atmalıdır. Sədr müavini "Həyat sözü" dini icmalarının fəaliyyətindən də söz açaraq onların cəmiyyətin həyatında yaxından iştirak etdiklərini söyləyib.

İlk dəfə ölkəmizə 1994-cü ildə səfər etdiyini bildirən Kristian Akerhielm Bakının dinamik inkişafına heyranlığını ifadə edib. Azərbaycanın qlobal miqyasda dinlərarası dialoqun genişlənməsində yaxından iştirak etdiyini xüsusilə vurğulayan qonaq qeyd edib ki, ölkəmizdəki tolerantlıq mühiti ölkənin dini mənzərəsini əks etdirir. Qonaq respublikamızda qeyd olunan Pasxa bayramında iştirak etdiyini xatırladaraq qeyri-müsəlman dini icmalarına qayğı və himayəni yüksək dəyərləndirib.

Qarşılıqlı maraq doğuran digər məsələlərin müzakirə edildiyi görüşün sonunda qonağa DQİDK-nın xarici dillərdə nəşr etdirdiyi, Azərbaycanın tolerantlıq mühitindən bəhs edən kitablar təqdim edilib.

# DÖVLƏT KOMİTƏSİNDƏ MÜŞAVİRƏ KEÇİRİLİB

Aprelin 18-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) videoformatda müşavirə keçirilib. Müşavirədə DQİDK-nın sədr müavinləri, Mərkəzi Aparat və bölgə şöbələrinin müdirləri iştirak ediblər.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı gündəlikdəki məsələlərə diqqət çəkərək ölkənin bütün bölgələrini əhatə edəcək maarifləndirmə tədbirlərində dini fanatizm, radikalizm, ekstremizmə qarşı mübarizə, həmçinin, multikulturalizm, tolerantlıq, sülh şəraitində birgəyaşayış, vətəndaşların hüquq bərabərliyi, ümumbəşəri dəyərlərə hörmət istiqamətlərində tədbirlərin davamlı olaraq keçirildiyini qeyd edib.

2023-cü ilin Azərbaycanda "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı Komitənin Tədbirlər Planında öz əksini tapan tədbirlər barədə də danışan M.Qurbanlı dahi şəxsiyyətin fəaliyyətinin ayrı-ayrı istiqamətlərinin daha dərindən öyrənilməsi, Ulu Öndərin



zəngin irsinin əhatəli təbliğinə geniş imkanlar yaradacaq layihələrin reallaşdırılmasının önəmindən bəhs edib. Ramazan bayramı barədə danışan Komitə sədri DQİDK-nın mərkəzi Aparat və bölgə şöbələrinin üzərinə düşən vəzifələri nəzərə çatdırıb. Bayram namazında Qafqaz Müsəlmanları İdarəsi Qazılar Şurasının verəcəyi fətvanın tələblərinə ciddi riayət olunmasının vacibliyini, o cümlədən bu məqsədlə bölgə şöbələrinin əməkdaşları tərəfindən yerlərdə monitorinqlərin keçirilməsinin labüdlüyünü vurğulayıb.

DQİDK-nın sədr müavinləri isə Dövlət Komitəsi tərəfindən İslam dininə aid ibadət yerlərinə (məscidlər) din xadimlərinin təyin olunması məqsədilə elan edilən müsahibələr, eləcə də təyinat alan din xadimlərinin fəaliyyəti, maarifləndirmə prosesinin effektivliyinin artırılması barədə fikirlərini bölüşüblər.

Sonda qarşıda duran vəzifələrin icrası ilə bağlı müvafiq tapşırıq və tövsiyələr verilib.

# “MÜASİR ÇAĞIRIŞLAR VƏ QARŞIDA DURAN ƏSAS HƏDƏFLƏR”

Aprelin 27-29-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə “Müasir çağırışlar və qarşıda duran əsas hədəflər” mövzusunda üçgünlük regional konfrans keçirilib.

Aprelin 27-də Ulu Öndər Heydər Əliyevin Sumqayıt şəhərində ucaldılan abidəsi ziyarət olunub.

DQİDK və Sumqayıt Şəhər İcra Hakimiyyətinin (ŞİH) rəhbər şəxsləri, Milli Məclisin deputatları, şəhər ictimaiyyətinin nümayəndələri, dini icma sədrləri, eləcə də din xadimlərinin iştirak etdikləri tədbir ölkəmizin ərazi bütövlüyünün qorunması uğrunda şəhid olmuş qəhrəman Vətən oğullarının əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Ardınca Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Açılış nitqi ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxış edərək regionlarda keçirilən bu tip maarifləndirmə tədbirlərinin dövlətin din siyasətini müasir çağırışlarla uzlaşdırmaq və qarşıda duran hədəfləri müəyyənləşdirmək baxımından əhəmiyyətli olduğunu bildirib.

Nümunəvi dövlət-din münasibətlərinin tarixinə diqqət çəkən M.Qurbanlı bu il anadan olmasının 100 illiyi qeyd olunan Ümummilli Lider Heydər Əliyevin uğurlu daxili və xarici siyasət strategiyası nəticəsində ölkəmizdə iqtisadi inkişafa, daxili siyasi sabitlik və əmin-amanlığa, eləcə də milli-mənəvi dəyərlərə qayıdışa nail olunduğunu bildirib. Məhz Ulu Öndər sayəsində Azərbaycan 1993-cü ildən bu günə qədər inkişaf yolunda inamla irəliləyir, qazanılan möhtəşəm uğurlar ölkəmizin qüdrətinin daha da artmasını təmin edir. Bu uzaqgörən kursun məntiqi davamı olaraq cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi siyasət, əldə edilən uğurlar, ictimai-siyasi həyatdakı sabitlik din sahəsində də özünü göstərir. Xüsusilə, böyük tarixə malik dini məbədlərimizin bərpası və xalqımızın istifadəsinə verilməsi sahəsində ardıcıl tədbirlərin həyata keçirilməsi milli-mənəvi dəyərlərimizə olan böyük xidmətdir. Xalqımızın dini dəyərlərinə, müxtəlif dinlərə və sivilizasiyalara hörmətlə yanaşması, milli-mənəvi dəyərlərə həssas münasibətin dövlət siyasətinin mühüm prioritetlərindən birinə çevrilməsi, ölkədə güclü tolerantlıq ənənələrinin getdikcə daha da möhkəmləndirilməsi Azərbaycanı dünyada multikulturalizmin əsas mərkəzinə çevirib. Ölkəmizdə 2253 məscid mövcuddur, habelə, respublikada 16 kilsə və 7 sinaqoq fəaliyyət göstərir. Qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Ordumuzun əldə etdiyi zəfər nəticəsində işğaldan azad edilmiş ərazilərimizdəki abidələrimizin, məscidlərimizin bərpası və yenilərinin inşa edilməsi üzrə layihələrə başlamaqla Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun missiyası xüsusilə vurğulanmalıdır.

Din amilindən siyasi məqsədlər naminə istifadə hallarının artığını, dinin dünyada mədəni-əxlaqi dəyər çərçivəsindən çıxaraq kəskin şəkildə siyasiləşməsi cəhdlərindən də danışan M.Qurbanlı dini radikalizmə qarşı mübarizənin müxtəlif istiqamətlərdə qurulduğunu bildirib. Bu kimi mənfi tendensiyalara qarşı mübarizə tədbirlərinin, maarifləndirmə işlərinin effektivliyinin artırılmasının vacibliyindən danışıb. Qeyd edib ki, bu istiqamətdə müvafiq dövlət qurumları ilə yanaşı, kütləvi informasiya vasitələri, ictimaiyyət nümayəndələri, vətəndaş cəmiyyəti institutları və gənclərin rolu xüsusi əhəmiyyət kəsb edir.

Çıxışında qloballaşan dünyada baş verən dəyişikliklərə də toxunan Komitə sədri texnoloji nailiyyətlərin fərdlərin, eləcə də cəmiyyətin norma və həyat tərzinə təsirsiz ötüşmədiyini bildirib. Vurğulayıb ki, bu gün dəyişən, inkişaf edən cəmiyyət reallığında əsas məqsədimiz müasir və güclü Azərbaycanı bütün dünya azərbaycanlılarının istinad nöqtəsinə çevirməkdir.



Sumqayıt Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Teymur Səmədov qeyd edib ki, Ümummilli liderin ölkəyə rəhbərliyi dövründə sürətlə və uğurla inkişaf edən şəhərlərdən biri də Sumqayıt olub. Sumqayıtın sosial-iqtisadi inkişafında, əhalinin yaşayışı-




nın, sosial rifahının yaxşılaşmasında Heydər Əliyevin xidmətlərindən danışan T.Səmədov bildirib ki, bu siyasi kurs Prezident İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir. Sumqayıtdakı dini durum barədə də məlumat verən ŞİH rəsmisi ölkəmizdə olduğu kimi şəhərdə tolerantlıq mühitinin mövcud olduğunu söyləyib. Sumqayıtda bütün dinlərin nümayəndələrinin sülh və qardaşlıq şəraitində yaşadığını, Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində şəhər Cümə məscidinin əsaslı şəkildə qurularaq dindarların istifadəsinə verildiyini deyib.

Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova milli dəyərlərin qorunması və onun gələcək nəsillərə çatdırılmasının aktuallığına toxunub. Həmçinin ailə institutunun möhkəmləndirilməsi məqsədilə milli-mənəvi dəyərlərin əhali arasında düzgün təbliğinin, qadın və uşaq hüquqları sahəsində maarifləndirmə işlərininin daha da gücləndirilməsinin önəmi barədə fikirlərini bölüşüb. Vurğulayıb ki, ailə cəmiyyətin əsası, milli sərvətidir. Biz bu qiymətli sərvəti yad təsirlərdən qorumaqla yanaşı, dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək zənginləşdirməli, gənc nəsli daha sağlam tərbiyələndirməliyik. H.Hüseynova bu istiqamətdə aparılan dövlət siyasətinə toxunaraq bildirib ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Ümummilli Lider Heydər Əliyevin azərbaycançılıq konsepsiyasına uyğun olaraq ölkədə dövlət-din münasibətlərinin, millətlərarası və dinlərarası dialoqun genişlənməsi üçün əlverişli şərait yaradılıb. Bu sahədə yaradılmış müdrik siyasi-mənəvi xətt Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyev tərəfindən bu gün uğurla davam etdirilir və zənginləşdirilir. Cənab Prezident İlham Əliyev və ölkənin Birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü ilə keçirilən müxtəlif səviyyəli tədbirlər, layihələr Azərbaycanı regionda və dünyada tolerantlıq nümunəsinə, milli-mənəvi dəyərlərin qorunub saxlanıldığı məkana çevirib.

Milli Məclisin deputatı Tahir Mirkişili bu cür maarifləndirmə tədbirlərinin əhəmiyyətindən bəhs edərək bildirib ki, Azərbaycan cəmiyyəti nə qədər tolerant və multikultural dəyərlərə sadiq olsa da, dini maarifləndirmə tədbirləri bu dəyərlərin qorunub saxlanılması və davam etdirilməsi baxımından olduqca önəmlidir. Uzun illər müstəqil dövlət uğrunda çoxsaylı qurbanlar vermiş Azərbaycan xalqı bu gün milli məfkurəyə, azərbaycançılıq ideyalarına sadiqdir. Dünyəvilik və dini dəyərlərin bir-birinə qarşı qoyulmasının yolverilməzliyini vurğulayan millət vəkili dinin əsas funksiyasının insanların mənəvi tələbatlarını ödəmək olduğunu, siyasiləşdirilməsinin ağır nəticələr verə biləcəyini diqqətə çatdırıb.

YAP Sumqayıt şəhər təşkilatının sədri Ramiz Hüseynov çıxışında Ulu Öndər Heydər Əliyevin hələ SSRİ dövründə respublikamıza rəhbərlik etdiyi zaman milli-mənəvi dəyərlərin yaşadılması, qorunması, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi, o cümlədən milli-strateji məqsədlərə çatmaq üçün kadr potensialının formalaşdırılması istiqamətində həyata keçirdiyi uzaqgörən siyasətə diqqət çəkib. Bildirib ki, Heydər Əliyev Naxçıvan MSSR-in Ali Sovetinin sədri seçildikdən sonra da bu istiqamətdə konkret təşəbbüslərlə çıxış edib, gələcəyə yeni və mütərəqqi milli baxış formalaşdırıb. Məhz Ümummilli Liderin təşəbbüsü ilə ilk dəfə olaraq Naxçıvanda üçrəngli bayrağımız yenidən qaldırılıb, eyni zamanda 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan olunması barədə də tarixi qərara imza atıb. Bu siyasi kursun xalqımızın həmrəyliyinin güclənməsini, o cümlədən Vətənə sədaqət ruhunda gənc nəslin yetişməsini təmin etdiyini, milli dəyərlər əsasında tərbiyə olunan Azərbaycan gəncliyinin həm ölkəmizi beynəlxalq müstəvidə layiqincə təmsil etmək missiyasını uğurla yerinə yetirdiyini, həm də respublikamızın ərazi bütövlüyünün təmin olunmasında öz üzərinə düşən vəzifənin öhdəsindən məsuliyyətlə və şərəflə gəldiyini vurğulayıb.

Sumqayıt şəhər Ağsaqqallar Şurasının sədri Təbrik Quliyev və Qafqaz Müsəlmanları İdarəsinin bölgə qazısı Rauf Sərdarov çıxışlarında mövzunun əhəmiyyətindən danışaraq ölkəmizin ərazisində yaşayan müxtəlif millətlərin dini dözümlülük şəraitində özlərinin dini dəyərlərini qoruyub saxladıqlarından, dinlərarası həmrəyliyin dini konfessiyalar arasında qarşılıqlı etimadı gücləndirdiyindən bəhs ediblər. Qeyd ediblər ki, respublikamızda xalqımızın mənəvi sərvətləri olan dini ibadətgahların, məscidlərin və digər dini ayinlərin icra olunduğu məkanların təmirinə və bərpasına xüsusi diqqət ayrılır. Bu gün Azərbaycanda yeni-yeni dini ibadətgahların tikintisi də bu siyasətin bariz nümunəsidir.

***

Aprelin 28-də konfrans işini davam etdirib.

Konfrans Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Tədbirə DQİDK və Sumqayıt ŞİH-in rəhbərliyi, millət vəkili, Baş Prokurorluq, Daxili İşlər Nazirliyinin məsul şəxsləri, dini icma sədrləri, din xadimləri, şəhər hüquq-mühafizə orqanlarının nümayəndələri, ziyalılar, eləcə də təhsil işçiləri qatılıblar.

Tədbiri giriş sözü ilə açan Sumqayıt ŞİH başçısının birinci müavini Teymur Səmədov çıxış edərək Azərbaycana xas dövlət-din siyasəti, milli-mənəvi dəyərlər və tolerantlıq mühitinin qorunub saxlanması istiqamətində həyata keçirilən işlərdən danışıb. Bildirib ki, respublikamızda müxtəlif dini konfessiyalara aid ibadət yerlərinin - məscid, kilsə və sinaqoqların təmir-bərpası, yenilərinin inşasına xüsusi diqqət yetirilir. Əsası müstəqil Azərbaycanın qurucusu, Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan dövlət-din münasibətlərinin təməlində azərbaycançılıq ideologiyasının dayandığını xüsusi vurğulayan T.Səmədov Ulu Öndərin dövlət-din münasibətləri sahəsində irəli sürdüyü konsepsiyanın, müdrik tövsiyələrin bu günün reallıqları kontekstindəki müstəsna rolundan bəhs edib.

davamı səh. 6

# "MÜASİR ÇAĞIRIŞLAR VƏ QARŞIDA DURAN ƏSAS HƏDƏFLƏR"



əvvəli səh. 5

Daha sonra çıxış edən DQİDK sədrinin müavini Sahib Nağıyev respublikamızda dini etiqad azadlığının təmin edilməsi, xüsusilə Dövlət Komitəsinin dövlət-din münasibətlərinin tənzimlənməsi, yad dini ideologiyaların yayılmasına, cəmiyyətdə kök atmasına qarşı həyata keçirdiyi dini maarifləndirmə tədbirlərindən danışıb. Komitə rəsmisi ölkəmizdə mövcud olan nümunəvi tolerant, multikultural mühit, o cümlədən milli-mənəvi dəyərlərimizin qorunub-saxlanılması, dini ibadət yerlərinə, din xadimlərinə göstərilən diqqət və qayğıdan bəhs edərək bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə ölkəmizdə fəaliyyət göstərən dini qurumlara mütəmadi olaraq maliyyə yardımı ayrılır. Dinə mənəvi prizmadan yanaşılmasının, onun tərbiyəvi tərəflərinin, milli-mənəvi dəyərlərimizlə səsləşən əxlaqi prinsiplərinin insanlara, xüsusilə mənəvi şüuru formalaşmaqda olan gənc nəslə çatdırılmasının əhəmiyyətinə də toxunan S.Nağıyev vurğulayıb ki, bu baxımdan din xadimlərinin üzərinə önəmli bir vəzifə düşür. Onlar məzhəbçiliyi və dini təəssübkeşliyi təbliğ edən xarici radikal dini mərkəzlərin ideoloji-psixoloji təsirinə qarşı mübarizə aparmalı, məscidlərdə, müxtəlif dini ibadət yerlərində vətəndaşlarla ünsiyyət zamanı məzhəbçiliyə, mövhumata imkan verməməli, maarifləndirmə işlərini davam etdirməlidirlər.

Azərbaycan Respublikası Milli Məclisinin deputatı Müşfiq Məmmədli isə çıxışında Ulu Öndər Heydər Əliyevin siyasətini layiqincə davam etdirən möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə dini etiqad azadlığının yüksək səviyyədə təmin olunduğunu diqqətə çatdırıb. "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununa əlavə və dəyişikliklərin edildiyini və bu istiqamətdə qanunvericilik bazasının təkmilləşdirildiyini vurğulayıb. Tolerantlığın Azərbaycanda dövlət siyasətinin tərkib hissələrindən birini təşkil etdiyini bildirən Milli Məclisin deputatı qeyd edib ki, ölkəmizdə dünyəvi dövlət-din münasibətləri yüksək səviyyədə tənzimlənir, dini sahədə sabitlik qorunur, konfessiyalar arasında qarşılıqlı anlaşma və etimad təmin edilir. Eyni zamanda M.Məmmədli dini maarifləndirmə tədbirlərinin əhəmiyyətindən danışaraq bu sahədə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin müvafiq qurumlarla birgə həyata keçirdiyi işləri yüksək qiymətləndirib.

Baş Prokurorluğun nümayəndəsi Asim Yusifov və Daxili İşlər Nazirliyinin əməkdaşı Oqtay Tağıyev çıxışlarında respublikamız üçün dinin siyasiləşdirilməsi təhlükəsinin o qədər də aktual olmadığını bildiriblər. Buna baxmayaraq, ölkəmizin müstəqil daxili və xarici siyasətinə müxtəlif yollarla təsir etməyə cəhd göstərən, onun uğurlarını gözü götürməyən kənar dairələrə qarşı effektiv mübarizə aparıldığını qeyd ediblər. Çıxışçılar dini ektremizmə və radikalizmə qarşı mübarizə istiqamətində həyata keçirilən tədbirlərdən də bəhs ediblər.




DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsinin müdiri Yalçın Abdullayev Azərbaycanda milli, irqi və dini zəmində ayrı-seçkilik hallarının olmadığını, bunun dini-mədəni müxtəliflik, tolerant və multikultural dəyərlərin inkişafına təkan verdiyini diqqətə çatdırıb: "Təbii ki, qloballaşma ilə bağlı çağırışların vüsət aldığı müasir dövrdə milli-mənəvi dəyərlərimizin və adətlərimizin qorunub saxlanılması xüsusilə din xadimlərindən mənəvi məsuliyyət tələb edir". Şöbə müdiri onu da deyib ki, azərbaycançılıq məfkurəsinin, milli-mənəvi, dini dəyərlərin təbliği və daha da möhkəmləndirilməsi Azərbaycan Prezidenti cənab İlham Əliyevin daim diqqət mərkəzindədir. Respublikamız dinlərarası və mədəniyyətlərarası dialoqa dünyada sülhün və sabitliyin təmin olunmasının mühüm vasitələrindən biri kimi baxır.

Qafqaz Müsəlmanları İdarəsinin bölgə qazısı Rauf Sərdərov çıxışında dövlətin dinə və dindarlara qayğısına, eləcə də xalqımıza məxsus milli-mənəvi dəyərlərin qorunmasının və gələcək nəsillərə ötürülməsinin vacibliyinə, gənclərin dini cəhətdən maarifləndirilməsi istiqamətində görülən işlərə diqqət çəkib.

Tədbir müzakirələrlə yekunlaşıb.

***

Regional konfransın üçüncü günündə Azərbaycan Respublikası Milli Məclisinin deputatı Emin Hacıyev, DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Cahandar Əlifzadə, Sumqayıt Şəhər İcra Hakimiyyətinin (ŞİH) İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Fərman Kazımov, şəhər Gənclər və İdman İdarəsinin rəisi Elgün Hümbətov, ictimaiyyət nümayəndələri, eləcə də gənclər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Sumqayıt ŞİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı Fərman Kazımov şəhərdə mövcud dini durum və bu sahədə görülmüş işlər barədə ətraflı məlumat verib, Sumqayıt şəhərində dini durumun sabit olduğunu qeyd edib.

Milli Məclisin deputatı Emin Hacıyev isə çıxışında bildirib ki, bu gün Azərbaycanda dövlət-din münasibətlərinin mövcud səviyyəsi ən yaxşı model kimi qiymətləndirilir. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin bu sahəyə xüsusi diqqət və qayğısı nəticəsində respublikamızda dövlə-din münasibətləri özünün ən yüksək səviyyəsindədir. Millət vəkili bildirib ki, Azərbaycanda dünyaya nümunə ola biləcək tolerantlıq mövcuddur və müxtəlif dinlərin nümayəndələri azad şəraitdə yaşayırlar.

Daha sonra çıxış edən DQİDK-nın şöbə müdiri Cahandar Əlifzadə ölkəmizdə dövlət-din münasibətlərinin tənzimlənməsi, milli-mənəvi dəyərlərimizin təbliği, eləcə də dini radikalizmlə mübarizə sahəsində görülən işlər haqqında danışıb. Komitə rəsmisi ölkəmizdəki dövlət-din münasibətlərinin zəngin milli-tarixi ənənəyə əsaslandığını diqqətə çatdırıb. C.Əlifzadə Azərbaycan dövlətinin din siyasətinin əsas məqsədi dini etiqad azadlığının təmin edilməsi, dünyəvi dövlətçilik prinsiplərinin qorunub saxlanılması və dini təəssübkeşliyin dini təkəbbürə, sonra fanatizm və ekstremizmə çevrilməsinin qarşısının alınmasıdır. Eyni zamanda natiq onu da qeyd edib ki, gənclər dini radikalizm və ekstremizmin təsirinə düşməmək üçün təhsilə, elmə böyük önəm verməli, din haqqında bilgiləri düzgün mənbədən almalı, milli-mənəvi dəyərlərimizə bağlı olmalıdırlar.

Konfransın sonunda şəhər Gənclər və İdman İdarəsinin rəisi Elgün Hümbətov çıxış edərək, regionlarda keçirilən bu cür konfransların gənc nəslin ənənəvi dini və milli dəyərlərimiz, bu dəyərlərin ümdə prinsipləri haqqında doğru və sağlam mənbələrə əsaslanan biliklərlə təmin olunmasında xüsusi rola malik olduğunu vurğulayıb.

Üçgünlük konfrans müzakirələrlə başa çatıb.

# DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ ŞƏKİDƏ VƏTƏNDAŞLARI QƏBUL EDİB

Mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı aprelin 25-də Şəki, Oğuz və Qəbələ rayonlarından olan vətəndaşlarla görüşüb.



Qəbuldan əvvəl Ümummilli Lider Heydər Əliyevin Şəki şəhərinin mərkəzində ucaldılmış abidəsi ziyarət edilib. Abidə önünə gül dəstələri qoyulub, Ulu Öndərin xatirəsi ehtiramla yad olunub.

Qəbula gələn vətəndaşlar dini maarifləndirmə işinin genişləndirilməsi, İslam dininə aid ibadət yerlərinə və ziyarətgahlara din xadiminin təyin olunması, dini qurumların dövlət qeydiyyatına alınması, məscidlərin dini ədəbiyyatlarla təmin edilməsi, dini təhsil, habelə digər məsələlərlə bağlı müraciət ediblər.

Dövlət Komitəsinin aidiyyəti struktur bölmə rəhbərinin iştirakı ilə keçirilmiş qəbulda vətəndaşların müraciətləri diqqətlə dinlənilib, ərizələri qəbul edilərək müvafiq tədbirlərin görülməsi istiqamətində tapşırıqlar verilib.

# HEYDƏR ƏLİYEVİN SİYASƏTİ: DÖVLƏT-DİN MÜNASİBƏTLƏRİ

*Azərbaycan dövləti öz vətəndaşları üçün Konstitusiyada təsbit olunmuş bütün azadlıqların, o cümlədən vicdan azadlığının təmin edilməsini öz siyasətinin əsas tərkib hissəsi hesab edir. Azərbaycanda formalaşmış dövlət-din münasibətləri beynəlxalq aləmdə bu sahədə səmərəli və əlverişli model kimi qəbul edilir.*

***Ümummilli Lider Heydər Əliyev***

Azərbaycan dünyada zəngin milli-mənəvi dəyərlərə malik olan dünyəvi dövlət kimi tanınır. Müxtəlif tarixi dövrlərdə Bütpərəstlik, Zərdüştilik, İudaizm, Xristianlıq, İslam və digər dinlərin Azərbaycan ərazisində yayılması ölkəmizdə tolerant mühitin yaranmasında böyük rol oynamışdır. Xalqımız ən keşməkeşli, siyasi-ideoloji qadağaların mövcud olduğu dövrlərdə belə milli-mənəvi dəyərlərini və onun tərkib hissələrindən biri olan dini ənənələri qorumuşdur. Azərbaycanın yenidən dövlət müstəqilliyini əldə etməsi respublikamızda dini münasibətlərin demokratik prinsiplər əsasında inkişafı üçün əlverişli imkanlar yaratdı. 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətə qayıdışından sonra cəmiyyətin bütün sahələrində olduğu kimi, dövlət-din münasibətlərində də inkişaf mərhələsinin bünövrəsi qoyuldu. Heydər Əliyevin təşəbbüsü ilə 1995-ci ildə Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsi ölkəmizin dövlət-din münasibətləri modelinin dünyəvilik prinsipi əsasında formalaşması üçün hüquqi təminat yaratdı. Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində ölkəmizin vətəndaşları dini baxışlarından asılı olmayaraq azərbaycançılıq məfkurəsi ətrafında sıx birləşdi və onlar milli həmrəyliyin möhkəmlənməsində, müstəqil dövlət quruculuğu proseslərində fəal iştirak etməyə başladı. Azərbaycanda yaşayan dini-etnik qruplar özlərinin dini-mədəni dəyərlərini və etnoqrafik ənənələrini qoruyub saxladılar. Dini-mədəni müxtəlifliyin təmin olunması Heydər Əliyevin apardığı siyasətin əsas məqsədlərindən birini təşkil etmişdir. Azərbaycanın dövlət-din münasibətləri modelinin möhkəmləndirilməsi məqsədilə dövlət maraqlarının müdafiəsi, vicdan və dini etiqad azadlığına dair konstitusion normaların təmin olunması, dövlət orqanları ilə dini qurumlar arasında münasibətlərin hüquqi tənzimlənməsi, dini konfessiyalar arasında qarşılıqlı etimad mühitinin yaradılması, dini fanatizmə və ekstremizmə qarşı mübarizədə dini maarifləndirə işinin təşkili, dini müxtəlifliyin qorunması və dinlərarası dialoqun inkişaf etdirilməsi, dini fəaliyyət sahəsində qanunvericiliyin təkmilləşdirilməsi, dini qurumların əsaslandırılmış təklif və tövsiyələrinin nəzərə alınması, dini qurumların fəaliyyətinin qanunvericiliyin tələblərinə uyğun təşkilinə nəzarət olunması və s. istiqamətlər üzrə məqsədyönlü siyasətin aparılmasına başlanıldı.

Bu sahədə əldə olunan uğurlar Azərbaycana dünya birliyində multikulturalizmin və tolerantlığın inkişaf etdiyi dünyəvi dövlət kimi böyük nüfuz qazandırdı. "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər edilməklə dünyəvi dövlət-din münasibətlərinə dair qanunvericilik sistemi təkmilləşdirildi. Ölkəmizdə dövlət orqanları ilə dini qurumlar arasındakı münasibətlərin demokratik normalar çərçivəsində tənzimlənməsinə başlanıldı. "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa görə, bütün dinlər və dini qurumlar qanun qarşısında bərabərdir. Heç bir din (dini cərəyan) və dini qurum barəsində digərlərinə nisbətən hər hansı üstünlük və ya məhdudiyyət müəyyən edilə bilməz.

Ölkəmizdəki dini dözümlülük mühiti dini konfessiyalar arasında həmrəyliyi, dinc yaşamanı təmin etdi. Azərbaycanda dini müxtəlifliyin və dinlərarası dialoqun möhkəmlənməsi üçün mühüm addımlar atıldı. Dini fəaliyyət sahəsində dövlət siyasətinin həyata keçirilməsi, müxtəlif dini etiqadları təmsil edən dini qurumlar arasında qarşılıqlı hörmət, anlaşma və dözümlülük mühitinin möhkəmlənməsi, dini radikalizm və ekstremizmin, dini zəmində qarşıdurma və ayrı-seçkilik hallarının qarşısının alınması məqsədilə Azərbaycan Prezidenti Heydər Əliyevin 2001-ci il 21 iyun tarixli Fərmanı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yaradıldı. Azərbaycanın dövlət-din münasibətləri modeli xalqımızın milli-mənəvi dəyərləri ilə sıx şəkildə bağlıdır ki, bunun da ciddi tarixi-siyasi əsasları vardır. Belə ki, tarixən müxtəlif ictimai-siyasi quruluşlarda yaşamasına baxmayaraq, xalqımız özünün milli-mənəvi dəyərlərini qoruyub saxlamışdır. Heydər Əliyev Azərbaycanın əhalisinin çoxmilli tərkibə malik olmasını xalqımızın milli sərvəti, üstünlüyü kimi qiymətləndirmişdir. Milli-mənəvi dəyərlərin qorunması Heydər Əliyevin apardığı siyasətin əsas istiqamətlərindən birini təşkil etmişdir. Bunun nəticəsində milli mənlik şüuru inkişaf etmiş, xalqımızın öz tarixini, milli-mənəvi dəyərlərini və soykökünü dərindən öyrənməsi, azərbaycançılıq məfkurəsinin inkişafı üçün əlverişli şərait yaranmışdır. Ulu Öndər milli-mənəvi dəyərlərə azərbaycançılıq məfkurəsinin tərkib hissələrindən biri kimi yanaşaraq bildirmişdir: "Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq". Vicdan və dini etiqad azadlığının, dini təhlükəsizliyin təmin edilməsi və dünyəvi dövlət-din münasibətləri modelinin möhkəmlənməsi istiqamətində Heydər Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində Azərbaycanda dini sabitlik möhkəmləndi. Dövlətin konstitusiya quruluşunun, o cümlədən onun dünyəvi xarakterinin zorla dəyişdirilməsini təbliğ edən radikal dini ideologiyaların ölkəmizdə təbliği cəhdlərinin qarşısı alındı. Dini fanatizmə və ekstremizmə qarşı mübarizədə dövlət siyasətinin mühüm məqsədləri müəyyən edildi. Ümummilli Lider səmavi dinlərin, o cümlədən İslam dininin zorakılığa qarşı olduğunu bildirərək vurğulamışdır ki, bəzi dairələr qərəzli siyasi məqsədlərinə nail olmaq üçün dindən vasitə kimi istifadə edir. Həmişə sülh, əmin-amanlıq, qardaşlıq kimi humanist prinsiplərin carçısı olan İslam dini ona etiqad edən insanlarda yüksək mənəvi keyfiyyətlərin formalaşmasına xüsusi diqqət yetirir. Bu baxımdan, demək olar ki, öz cinayətkar əməllərini dini şüarlarla pərdələməyə çalışan bəzi terrorçu qrupların, ayrı-ayrı adamların fəaliyyətinin İslam dini ilə heç bir əlaqəsi yoxdur, onların əməlləri İslamın humanist prinsiplərinə tamamilə ziddir.

Heydər Əliyevin əsasını qoyduğu dünyəvi dövlət-din münasibətlərinin mühüm tərəflərindən birini dinlərarası dialoq təşkil edir. Bu dialoq cəmiyyətdə sabitləşdirici faktor rolunu oynayır və onun vasitəsilə insanlar özlərinin dini-mədəni təcrübəsini, tələbatlarını və arzularını bölüşür. Dinlərarası dialoq müxtəlif dinlərin nümayəndələri arasında dini həmrəylik yaradan vacib amillərdən biridir. Elmi nəşrlərdə və beynəlxalq təşkilatların materiallarında "dinlərarası dialoq" ifadəsi müxtəlif aspektlərdən izah edilir. Hesab olunur ki, bu dialoq öz mahiyyətinə görə: dinlərarası əlaqələrin açıqlığına, dini müxtəlifliyə, tolerant dəyərlərə əsaslanan sosial prosesdir; tolerant şəraitdə dini-mədəni qarşılıqlı təsiri ifadə edən sosiomədəni praktikadır; dərk edilmiş və məqsədyönlü fəaliyyətə söykənən, müxtəlif dini dünyagörüşü olan insanlar arasında tolerant münasibətləri təmin edən strategiyadır; dini ünsiyyət formasıdır və s. Dinlərarası dialoq fərqli dini dəyərlərə hörmətlə yanaşmaq deməkdir.

Azərbaycan dünyada dinlərarası dialoqun inkişaf etdiyi məkan kimi tanınır. Heydər Əliyevin dinlərarası dialoqla bağlı apardığı siyasətə görə, müxtəlif dini ənənələrə bir-birindən təcrid olunmuş şəkildə baxıla bilməz. Bəşəriyyəti narahat edən qlobal problemlərin aradan qaldırılması üçün dinlərarası dialoqun genişləndirilməsi xüsusi əhəmiyyət daşıyır. Bu dialoqun möhkəmlənməsində ölkəmizin maddi-mədəni potensialı, əlverişli coğrafi mövqeyi və dini-etnik mühiti vacib rol oynayır. Dini təhlükəsizlik bütün dövrlərdə olduğu kimi, hazırda da dünya ölkələri üçün vacib əhəmiyyət daşıyır. Məlumdur ki, XX əsrin sonlarından etibarən dünyanın geosiyasi mənzərəsində mühüm dəyişikliklər baş verdi. Münaqişələrin, lokal müharibələrin sayı artdı, dini təhlükəsizliyə siyasi-ideoloji, dini-etnik və s. xarakterli təhdidlər yarandı. Aydın oldu ki, dünya dövlətlərinin birgə mübarizəsi nəticəsində onların qarşısı alına bilər. Bütün bunlardan irəli gələrək ölkəmizdə dini sabitliyin qorunub saxlanılması və dini təhlükəsizliyə təhdidlərin qarşısının alınması dövlət siyasətinin əsas vəzifələrindən birini təşkil etdi. Azərbaycan xalqının dini-mədəni kimliyinin qorunması Heydər Əliyevin apardığı siyasətdə özünə mühüm yer tutmuşdur. Dini-mədəni kimliyin möhkəmlənməsinə ölkəmizin yerləşdiyi coğrafi ərazi, xalqımızın milli-mənəvi dəyərləri və adət-ənənələri, əhalinin dini-etnik tərkibi və s. mühüm təsir göstərir. Qeyd edək ki, dini-mədəni kimlik müxtəlif komponentlərdən ibarətdir. Onun birinci komponentinə keçmiş, indi və gələcək arasındakı varislik prinsipi daxildir. İkinci komponenti mənəvi-əxlaqi dəyərlər təşkil edir. Üçüncü komponent isə özündə milli-dini inkişafa dair baxışları ehtiva edir. Heydər Əliyev xalqımızın dini-mədəni kimliyinin qorunmasında dini adət-ənənələrin böyük rol oynadığını bildirmişdir. Ramazan bayramı münasibətilə Ümummilli Lider çıxışlarının birində qeyd etmişdir: "Ramazan bayramı müsəlmanların müqəddəs bayramlarından biridir. Bu bayram həmişə müsəlmanlara xeyir-bərəkət gətirib, sülh, əmin-amanlıq gətirib, dostluq-mehribanlıq gətiribdir. Təəssüflər olsun ki, biz Azərbaycanda bu bayramı yalnız son illər ümummilli bayram, xalq bayramı kimi qeyd edirik. Yəni son illərə qədər belə bayram etməmişik, indi edirik. Keçmiş illərdə Sovet ittifaqının hər yerində olduğu kimi, Azərbaycanda da din yasaq edildiyinə görə, bu bayramlar qadağan olunduğuna görə insanlar bunları öz ailəsində, evində, qəlbində bayram ediblər".

Ümumdünya tarixindən məlumdur ki, dini-mədəni kimliklə uzlaşmayan, hətta bəzən ona zidd olan mənfi təsirlər dini-etnik zəmində problemlərin yaranmasına gətirib çıxarmışdır. Bu cür xoşagəlməz halların qarşısının alınmasında multikulturalizmin böyük əhəmiyyəti vardır. Çünki multikulturalizmin, eləcə də tolerantlığın əsas xüsusiyyəti dini-mədəni kimliyə və dini-etnik müxtəlifliyə hörmət etməkdir. Buna görə də Heydər Əliyevin siyasətində müxtəlif millətlərin və xalqların din-mədəni ənənələrinə, özünəməxsusluğuna hörmətlə yanaşılmış, onların ümumbəşəri dəyərlərin zənginləşməsinə verdiyi töhfələr yüksək qiymətləndirilmişdir. Heydər Əliyevin Azərbaycanda dünyəvi dövlət-din münasibətlərinin inkişafı istiqamətində apardığı siyasət müasir dövrdə Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu sahədə nailiyyətlərin əldə olunmasında dini müxtəlifliyin qorunması və dinlərarası dialoq mühüm rol oynayır. Bununla bağlı Prezident İlham Əliyev demişdir: "Çoxmillətli və çoxkonfessiyalı dövlət kimi, Azərbaycan Respublikası bu gün dünya birliyinə hərtərəfli inteqrasiya siyasəti həyata keçirir, beynəlxalq aləmlə qarşılıqlı münasibətlərin, ikitərəfli və çoxtərəfli əməkdaşlıq əlaqələrinin inkişafına mühüm əhəmiyyət verir. Azərbaycan hökumətinin din siyasəti demokratik dövlət quruculuğu kursuna, eləcə də dövlət-din münasibətlərinin milli-mənəvi və hüquqi müstəvidə tənzimlənməsi prinsipinə əsaslanır. Ölkədə mövcud ictimai-siyasi sabitlik, vətəndaş həmrəyliyi və etnik-dini dözümlülük mühiti mütərəqqi tarixi ənənələrdən bəhrələnən milli siyasətin məntiqi nəticəsidir". Prezident İlham Əliyevin siyasətində qloballaşma ilə milli-dini kimlik arasındakı qarşılıqlı təsirə mühüm diqqət yetirilir. Nəzərə alınır ki, milli-dini kimlik ölkəmizin davamlı inkişafında və onun dünya birliyində böyük nüfuz qazanmasında əhəmiyyətli rol oynamaqla yanaşı, özündə dünyəvi dövlət-din münasibətləri modeli ilə bağlı baxışları ehtiva edir.

davamı səh. 8

# HEYDƏR ƏLİYEVİN SİYASƏTİ: DÖVLƏT-DİN MÜNASİBƏTLƏRİ

əvvəli səh. 7

Azərbaycan dövləti bütün dinlərin nümayəndələrinin hüquq bərabərliyini təmin edir. Ölkəmizdə dini qurumların fəaliyyət göstərməsi üçün lazımi şərait yaradılmışdır. Azərbaycanda 993 dini qurum dövlət qeydiyyatından keçmişdir ki, onların 956-sı İslam, 37-si isə qeyri-islam təmayüllüdür. Respublika ərazisində 2253 məscid mövcuddur, 16 kilsə, 7 sinaqoq fəaliyyət göstərir, 748 pir və ziyarətgah müəyyən edilib. Azərbaycanın işğaldan azad olunmuş ərazilərində indiyədək təsbit olunan tarixi-dini abidələrdən 67-si məscid, 139-u məbəd, 192-si ziyarətgahdır. İşğaldan azad olunmuş ərazilərdəki 67 məsciddən (Şuşada 13, Ağdamda 5, Füzulidə 16, Zəngilanda 12, Cəbrayılda 5, Qubadlıda 8, Laçında 8) 65-i tamamilə, 2-si isə qismən dağıdılaraq yararsız hala salınıb. Azərbaycanın dövlət-din münasibətləri modelinin əhəmiyyətini ictimai fikrə çatdırmaq üçün dini maarifləndirmə işinin səmərəli şəkildə təşkili istiqamətində mühüm addımlar atılır. Bu məqsədlə Prezident İlham Əliyevin 10 oktyabr 2017-ci il tarixli Sərəncamı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılması mənəvi dəyərlərin qorunması və dövlət-din münasibətlərinin inkişafına dair proqramların hazırlanaraq həyata keçirilməsi baxımından böyük əhəmiyyət daşıyır. Bundan əlavə, Prezident İlham Əliyevin 9 fevral 2018-ci il tarixli Sərəncamı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan İlahiyyat İnstitutunun yaradılması dini-mənəvi dəyərlərin qorunub saxlanılması və zənginləşməsi, dini fəaliyyətin təşkili sahəsində yüksəkixtisaslı kadrların hazırlanması istiqamətində atılmış mühüm addımlardan biridir. Prezident İlham Əliyevin sərəncamları ilə ölkəmizdəki dini qurumlara maliyyə yardımının göstərilməsi onların fəaliyyətinin dəstəklənməsi məqsədini daşıyır ki, bu da dövlət-din münasibətlərinin inkişafına və dinlərarası qarşılıqlı etimadın möhkəmlənməsinə xidmət edir.

Ölkəmizdə müxtəlif dini etiqad mənsubları arasında qarşılıqlı etimadın möhkəmləndirilməsi, həmçinin dini xurafat, fanatizm, radikalizm və ekstremizmin, dini zəmində qarşıdurma və ayrı-seçkilik hallarının, digər mənfi təzahürlərin qarşısının alınması istiqamətində dini maarifləndirmə işi aparılır. Müasir dövrdə dinin geosiyasi proseslərə təsirinin güclənməsi bir sıra səbəblərdən irəli gəlir. Belə ki, ölkələrin dini təhlükəsizliyinə təhdid yaratmaq istəyən dairələr dini-etnik xarakterli təxribatlar törətməyə çalışırlar. Onlar dini ayrı-seçkiliyə və ekstremizmə əl atmaqla din pərdəsi altında sabitliyi pozmağa cəhd göstərir, iddia edirlər ki, guya dinlərarası dialoq dini-mədəni kimliyə xələl gətirir. Təbii ki, bu cür mövqe ilə razılaşmaq mümkün deyil. Çünki bu yanaşma dini ekstremizmin və ksenofobiyanın güclənməsinə rəvac verir. Nəzərə alınmalıdır ki, bəşəriyyətin mütərəqqi inkişafını dini-etnik müxtəliflik olmadan və sivilizasiyalararası dialoqsuz təsəvvür etmək çox çətindir. Məqsədli şəkildə dini zəmində yaradılmış münaqişələr beynəlxalq təhlükəsizlik üçün ciddi təhdid yaradır. Dinlərarası dialoq cəmiyyətin harmonik inkişafı üçün zəmin yaradan meyarlar formalaşdırır, dini-mədəni dəyərlər arasında bağlılığı təmin edir.

Azərbaycanın dövlət-din münasibətləri modeli dini ekstremizmə qarşı mübarizədə təsirli mexanizmə malikdir. "Dini ekstremizmə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dini ekstremizmə qarşı mübarizənin hüquqi və təşkilati əsasları müəyyən olunmuş, dini ekstremizmə qarşı mübarizəni həyata keçirən dövlət orqanlarının və vətəndaşların hüquq və vəzifələri təsbit edilmişdir. Azərbaycan dövləti dini ekstremizmə qarşı mübarizə sahəsində fəal siyasət aparır və onun vəzifələri sırasına ölkəmizin konstitusiya quruluşunun əsaslarının, habelə ərazi bütövlüyünün və təhlükəsizliyinin təmin edilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi, dini ekstremist fəaliyyətin aşkar edilməsi, qarşısının alınması və dini ekstremizm nəticəsində gözlənilən zərərin minimuma endirilməsi, dini ekstremizmin yaranması və dini ekstremist fəaliyyətin həyata keçirilməsi səbəblərinin və şəraitinin, habelə dini ekstremizmin maliyyələşdirilməsi hallarının aşkar, yaxud ləğv edilməsi və s. daxildir. Azərbaycanın dövlət-din münasibətləri modeli dini-mədəni müxtəlifliyin qorunmasında mühüm rol oynayır. Prezident İlham Əliyevin sərəncamları ilə 2016-cı il Azərbaycanda "Multikulturalizm ili", 2017- ci il isə "İslam Həmrəyliyi ili" elan edilmişdir ki, bu da tolerant və multikultural dəyərlərə dövlət səviyyəsində böyük əhəmiyyət verildiyinin bariz nümunəsidir. Azərbaycan dövlətinin bu sahədə apardığı siyasət belə bir prinsipə əsaslanır ki, cəmiyyətin inkişafında dini-mədəni həmrəylik mühüm rol oynayır. Tarixi təcrübələr sübut edir ki, dini-mədəni həmrəylik dünyada dini zəmində münaqişələrin yaranması ehtimalını azaldır və yaxud onların zorakı vasitələrlə deyil, qarşılıqlı anlaşma yolu ilə həllində vacib rol oynayır. Müasir dövrdə dinlərarası dialoq həm də beynəlxalq münasibətlərə təsir göstərən ciddi faktorlardan biridir. Azərbaycan dövlətinin siyasətində dinlərarası dialoqun yalnız milli çərçivədə deyil, həm də beynəlxalq səviyyədə inkişafına böyük diqqət yetirilir. Ölkəmizin təşəbbüsü ilə keçirilən beynəlxalq tədbirlərdə (Bakı Humanitar Forumu, Dünya Mədəniyyətlərarası Dialoq Forumu, BMT Sivilizasiyalar Alyansının Qlobal Forumu, Dünya Dini Liderlərinin Bakı Sammiti və s.) çıxış edən dünyanın tanınmış dövlət xadimləri, Nobel mükafatı laureatları, nüfuzlu beynəlxalq təşkilatların rəhbərləri, dini liderlər və başqaları Azərbaycanın dövlət-din münasibətləri modelini, dinlərarası və mədəniyyətlərarası dialoqa verdiyi töhfələri yüksək qiymətləndirir, bunun dünya ölkələri üçün böyük örnək olduğunu vurğulayırlar. Vicdan və dini etiqad azadlığının təmin olunması, dini konfessiyaların sərbəst fəaliyyət göstərməsi üçün əlverişli şəraitin yaradılması sahəsində Azərbaycanın əldə etdiyi uğurlar Dünya Dini Liderlərinin 2010-cu və 2019-cu illərdə Bakıda keçirilmiş sammitlərində geniş müzakirə olunmuşdur. Tədbirlərdəki çıxışlar zamanı dünyada sülhün və əmin-amanlığın həm də dinlərarası dialoqla bağlı olduğu xüsusi vurğulanmışdır. Qeyd olunmuşdur ki, dinlərarası dialoq universal xarakter daşıdığına görə fərqli dinlər arasında anlaşma üçün böyük əhəmiyyət kəsb edir; dinlərarası dialoqun möhkəmlənməsi üçün regional və beynəlxalq səviyyələrdə müzakirələr aparılmalıdır; dini radikalizm və ekstremizm, habelə dini münaqişələrə səbəb olan digər halların qarşısını almaq üçün dini maarifləndirməyə xüsusi diqqət yetirilməlidir və s. Dünyada gedən qloballaşma prosesinin dini-mədəni kimliyə təsirinin öyrənilməsi aktuallıq kəsb edir. Qloballaşma xalqların dini-mədəni kimliyinə müxtəlif xarakterli çətinliklər törətməyə çalışsa da, bu, əks nəticə verir – xarici təsirlərə müdafiə reaksiyası kimi dini-mədəni özünüdərk güclənir. Tədqiqatçıların fikrincə, qloballaşmanın dini-mədəni kimliyə təsiri qaçılmazdır və bu məsələyə dair müxtəlif yanaşmalar mövcuddur. Birinci yanaşmaya görə, dini-mədəni kimlik keçmiş dəyərləri qoruyub saxlamağa çalışmaqla, qlobal kimliyin formalaşmasına çətinliklər yaradır və cəmiyyətdə mənəvi yeniləşmələrin qarşısını alır. Digər yanaşmaya görə, qloballaşma dini-mədəni kimliyə və özünüdərkə mənfi təsir göstərir. Azərbaycanın dövlət-din münasibətləri modeli milli-dini həmrəyliyin möhkəmlənməsində böyük rol oynayır və bu faktor özünü 44 günlük Vətən müharibəsində bir daha sübut etdi. Həmin dövrdə müxtəlif dinlərə etiqad edən ölkə vətəndaşları Azərbaycanın ərazi bütövlüyünün bərpası yolunda həmrəylik nümayiş etdirdilər. Onların müharibədə döyüşlərdə fəal şəkildə iştirakı dini mənsubiyyətindən asılı olmayaraq ölkəmizin vətəndaşlarının azərbaycançılıq məfkurəsi ətrafında sıx birləşdiyinin bariz ifadəsidir.



Ulu Öndər Heydər Əliyevin dini dözümlülüyün, dini müxtəlifliyin, milli və dini tolerantlığın, multikulturalizmin, milli-mənəvi dəyərlərin inkişafı və təbliği istiqamətində qoyduğu yolun davam etdirilməsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun əvəzolunmaz xidmətləri vardır. Fond yarandığı gündən etibarən tarixi, mədəni və dini abidələrin qorunub saxlanılması və bərpası istiqamətində nəhəng layihələr həyata keçirməkdədir. Ulu Öndərin adını daşıyan Fond dahi şəxsiyyətin ali məqsədini uğurla davam etdirərək milli-mənəvi dəyərlərimizin hamisi kimi çıxış edir. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Ordumuzun əldə etdiyi zəfər nəticəsində işğaldan azad edilmiş ərazilərimizdəki abidələrimizin, məscidlərimizin bərpası və yenilərinin inşa edilməsi üzrə layihələrə başlamaqla Heydər Əliyev Fondu öz tarixi missiyasına sadiqliyini bir daha göstərir. Sadalanan bütün bu layihələr, tarixi-dini, mədəni abidələrə qayğı, dini dəyərlərimizə verilən dəyər Ulu Öndərimizə ən böyük etimad nümunəsidir.

Yuxarıda qeyd edilənlərin ümumiləşdirilməsindən aydın olur ki, Azərbaycanda əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət-din münasibətləri modeli xalqımızın maraqlarını ifadə edərək demokratik prinsiplərə əsaslanır. Bu sahədə aparılan dövlət siyasətinin məqsəd və vəzifələri Azərbaycan Respublikasının Konstitusiyasına və digər qanunvericilik aktlarına uyğun olaraq müəyyən edilir. Milli maraqlara əsaslanmaq, rasionallıq və məqsədyönlülük dini sahədə dövlət siyasətini səciyyələndirən əsas xüsusiyyətlərdir. Azərbaycan dövləti regional və beynəlxalq səviyyələrdə dini təhlükəsizliyin təmin olunması istiqamətində məqsədyönlü siyasət aparır. Vicdan azadlığının və dini müxtəlifliyin təmin olunması, dinlərarası dialoqun genişlənməsi və dini təhlükəsizliyə təhdidlərin qarşısının alınması nəticəsində ölkəmizdə dini sabitlik qorunur.

**Mübariz Qurbanlı**
Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri

"Azərbaycan" qəzeti

# "DİN VƏ İDEOLOJİ TƏHLÜKƏSİZLİK"




Aprelin 26-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının (ADBTİA) birgə təşkilatçılığı ilə "Din və ideoloji təhlükəsizlik" mövzusunda konfrans keçirilib.

ADBTİA-da keçirilən tədbiri giriş sözü ilə açan prorektor Rizvan Əliyev tədbirin aktual mövzuya həsr edildiyini bildirib. Dini radikalizmin ideoloji təhlükəsizlik sahəsində yaratdığı fəsadlara toxunan prorektor ona rəvac verən təhdidlərin qarşısının alınmasının vacibliyini diqqətə çatdırıb. O, DQİDK-nın dini mühitdə cərəyan edən mənfi tendensiyaların qarşısının alınması, radikalizmlə mübarizənin səmərəliliyinin artırılması məqsədilə həyata keçirdiyi tədbirlərin önəminə toxunaraq bu sahədəki maarifləndirmə işlərinin davam etdirilməsinin əhəmiyyətini vurğulayıb.

Daha sonra geniş məruzə ilə çıxış edən DQİDK-nın sədr müavini Səyavuş Heydərov bildirib ki, din amili dünyada mədəni-əxlaqi dəyər çərçivəsindən çıxaraq kəskin şəkildə siyasiləşib. Təəssüf ki, tarixin müxtəlif dövrlərində olduğu kimi, bu gün də bəzi siyasi dairələr tərəfindən geosiyasi və geoiqtisadi maraqların təmin edilməsi üçün dindən istifadə edildiyinin şahidi oluruq. Sədr müavininin sözlərinə görə, hazırda dünyada, xüsusilə müsəlman ölkələrində sabitliyin pozulmasında din amili xüsusi rol oynayır və beynəlxalq güclər bu vəziyyətdən məharətlə istifadə edirlər. Bu, müəyyən maraqlı qüvvələr tərəfindən yaradılan çoxsaylı hərəkat və cərəyanların timsalında özünü açıq büruzə verir.

S.Heydərov qeyd edib ki, dövlətimiz dini radikalizmin qarşısının alınması, vətəndaşlarımızın xarici təsirlərdən qorunması, ölkədəki dini durumun sabit saxlanılması, əhalinin təhlükəsizliyinin təmin edilməsi istiqamətində tədbirləri bu gün də uğurla davam etdirir.

Zərərli dini ideologiyalarla mübarizədə ən səmərəli metodlardan birinin maarifləndirmə işinin gücləndirilməsi, insanların, xüsusilə də gənc nəslin dini biliklərinin artırılması olduğunu diqqətə çatdıran natiq qeyd edib ki, ümumi təhlillər bu təsirlərə daha çox dini bilikləri zəif olan gənclərin məruz qaldıqlarını göstərir.

Dövlət Komitəsi tərəfindən mövcud təhlükə, təhdidlərin qarşısının alınması üçün sistemli və geniş formada maarifləndirmə tədbirlərinin keçirildiyini deyən S.Heydərov bugünkü konfransın da bir nümunə olduğunu qeyd edib.

Konfrans müzakirələrlə öz işini yekunlaşdırıb.

***

Analoji tədbir aprelin 27-də Şəmkir şəhərində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Şəmkir Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə "dəyirmi masa" formasında baş tutub.

Tədbirdə DQİDK sədrinin müavini Səyavuş Heydərov, Şəmkir RİH başçısının birinci müavini Süleyman Zeynalov və Tovuz bölgəsi üzrə şöbənin dislokasiyasında yerləşən məscidlərdə fəaliyyət göstərən din xadimləri iştirak ediblər.

Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov bildirib ki, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət idarəçiliyi və xalqımızın milli maraqlarına tam uyğun müstəqil siyasət prinsipləri günümüzdə daha da təkmilləşmiş formada tətbiq edilir. Azərbaycan güclü dövlət prinsipləri ilə yanaşı, dini-mənəvi dəyərləri qoruyan və islamofobiya amilinə qarşı ciddi mübarizə aparan ölkədir. Respublikada milli-mənəvi dəyərlərimizə söykənən və sağlam dini təməllər üzərində formalaşdırılmış nümunəvi dövlət-din modeli mövcuddur.

Sədr müavini onu da vurğulayıb ki, hazırkı dövrdə dini məsələləri mənəvi aspektlə yanaşı, təhlükəsizlik aspektindən də dəyərləndirmək zərurəti yaranıb. Dinin mənəvi məzmunundan qoparılaraq siyasiləşdirilməsi bir sıra ölkələr, xüsusilə müsəlman ölkələri üçün dini təhlükəsizliyin təminatı baxımından olduqca təhlükəlidir. "Hazırkı dövrdə milli və qlobal təhlükəsizliyin əsas komponentlərindən birini məhz dini təhlükəsizlik təşkil edir", - deyə S.Heydərov əlavə edib. Bildirib ki, dini təhlükəsizlik təmin olunmadan milli təhlükəsizliyi təmin etmək qeyri-mümkündür. Milli təhlükəsizlik təmin edilmədən isə nə ictimai-siyasi sabitlikdən, nə demokratiyanın inkişafından, nə də hüquq və azadlıqların təmin edilməsindən bəhs etmək mümkündür.

S.Heydərov qeyd edib ki, dövlətimiz dini radikalizmin qarşısının alınması, vətəndaşlarımızın xarici təsirlərdən qorunması, ölkədəki dini durumun sabit saxlanılması, əhalinin təhlükəsizliyinin təmin edilməsi istiqamətində tədbirləri bu gün də uğurla davam etdirir.

Tədbir müzakirələrlə işini yekunlaşdırıb.

***

Aprelin 28-də isə DQİDK və Şəmkir RİH-in birgə təşkilatçılığı ilə keçirilən "dəyirmi masa"da ictimaiyyət nümayəndələri və gənclər iştirak ediblər.

Şəmkir rayonunda fəaliyyət göstərən müxtəlif idarə, təşkilatlarda çalışan aktiv gənclər iştirak etdiyi tədbiri giriş sözü ilə açan Şəmkir RİH başçısının birinci müavini Süleyman Zeynalov mövzunun aktuallığından danışaraq bildirib ki, ölkəmizdə formalaşan nümunəvi dövlət-din münasibətləri, dini sahədə sabitliyə nail olunması Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Prezident İlham Əliyevin bu siyasəti uğurla davam etdirdiyini qeyd edən RİH başçısının birinci müavini ölkəmizdə dini etiqad azadlığının təmin olunması üçün davamlı tədbirlərin həyata keçirildiyini diqqətə çatdırıb.

DQİDK sədrinin müavini Səyavuş Heydərov bildirib ki, "Din və ideoloji təhlükəsizlik" mövzusunda keçirilən dəyirmi masa maarifləndirici xarakterli olmaqla, respublikamızın bütün bölgələrində təşkil olunur. Tədbirin keçirilməsində məqsəd dünyadakı beynəlxalq təhlükəsizlik üçün ciddi təhdidə çevrilmiş dini radikalizm, ekstremizm, terrorizmin mahiyyəti və yaranma səbəbləri, həmçinin ona qarşı həyata keçirilmiş mübarizənin hüquqi əsasları haqqında məlumat verməkdir. Qeyd edilib ki, müasir dünyada aparıcı güc mərkəzləri özlərinin geosiyasi və geoiqtisadi maraqlarını təmin etmək üçün din, etiqad azadlığı və insan hüquqları anlayışından geniş istifadə edirlər. Beləliklə, din özünün əsas missiyasından uzaqlaşdırılaraq təhlükəli anlayışa çevrilir.

S.Heydərov yad dini təsirlərə qarşı mübarizədə Ulu Öndər Heydər Əliyevin banisi olduğu azərbaycançılıq ideologiyasının prinsiplərindən istifadə edilməsinin ən düzgün və effektli vasitələrdən biri olduğunu qeyd edib.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# "EHTİYAT KADRLAR SİYAHISINA DÜŞƏN 50 DİN XADİMİNİN YAXIN GÜNLƏRDƏ TƏYİNATI HƏYATA KEÇİRİLƏCƏK"

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Cahandar Əlifzadənin "Report"a müsahibəsi*

**- Məscidlərə din xadimlərinin təyinatı ilə bağlı məsələlər necə tənzimlənir?**

- Bildiyiniz kimi, "Dini etiqad azadlığı haqqında" Qanunun 8-ci maddəsinə 25 fevral 2022-ci il tarixli dəyişikliyə əsasən, dini ibadət yerlərinə din xadimlərinin təyinatı, o cümlədən attestasiyası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin səlahiyyətləri sırasına daxil edilib. Həmin dəyişiklikdən, eyni zamanda Azərbaycan Prezidentinin 11 mart 2022-ci il tarixli Fərmanından irəli gələn məsələlərin həlli məqsədilə Dövlət Komitəsinin Kollegiyası "İslam dininə aid ibadət yerlərinə və ziyarətgahlara din xadiminin təyin olunması, attestasiyası və tutduğu vəzifədən azad edilməsi Qaydası"nı hazırlayaraq təsdiq edib. Qaydada din xadimlərinin vəzifələri, onların təyinatı və attestasiyasının şərtləri barədə, o cümlədən onların təhsili ilə bağlı məsələlərə dair bəndlər öz əksini tapıb. Belə ki, qaydanın 1.2.1-ci bəndində yalnız dini ali və orta ixtisas təhsilli şəxslərin din xadimi ola biləcəyi vurğulanıb.

**- Müsahibələrdə iştirak edən namizədlər hansı təhsil ocaqlarının məzunlarıdır?**

- Dövlət Komitəsi keçən il məscidlərdə vakant yerlərin tutulması üçün iki müsahibə elan edib. 24 may 2022-ci il tarixində 39 vakant vəzifənin tutulması üçün elan edilmiş müsahibədə 270 namizədin sənədi qeydə alınıb. Onlardan 217-si dini ali, 53-ü isə orta ixtisas təhsilli olub. Namizədlərdən 25 nəfəri isə xaricdə dini təhsil alıb. Azərbaycanda təhsil alanların 169-u Bakı İslam Universiteti (BİU), 12-si Azərbaycan İlahiyyat İnstitutu (Aİİ), 11-i Bakı Dövlət Universitetinin (BDU) İlahiyyat fakültəsi, 27-si Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) təsisçisi olduğu Əliabad İslam Kollecinin (ƏİK), 26 nəfəri isə ölkədəki digər kollec və mədrəsələrin məzunlarıdır.

25 oktyabr 2022-ci ildə elan edilən növbəti müsahibədə ilk dəfə olaraq qadın dini ayinlərin icraçısı vəzifəsi üzrə məscidlərdə vakant yerlər müsahibəyə çıxarılıb. Statistikaya əsasən, İslam dininə aid ibadət yerləri üzrə 44 vakant vəzifəyə 254 namizəd sənəd verib, onlardan 183-ü kişi, 71 nəfəri isə qadındır. Namizədlərdən 170 nəfərinin dini ali, 83-nün orta ixtisas təhsilli olduğu, 35 nəfərin isə xaricdə dini təhsil aldığı məlum olub. Azərbaycanda təhsil alan 218 nəfərdən 129-u BİU-nu, 4-ü Aİİ-ni, 7-si BDU-nun İlahiyyat fakültəsini, 48-i QMİ-nin təsisçisi olduğu Şəbnəm İslam Kollecini, 12-i ƏİK-i, 21 nəfəri isə ölkədəki digər kollec və mədrəsələri bitiriblər.

**- Komitənin vəzifəyə təyin etdiyi din xadimlərinin dəqiq sayı ilə bağlı məlumat verə bilərsiniz?**

- Hər iki müsahibənin nəticəsinə görə, 18-i qadın olmaqla, 197 nəfər imtahanlardan uğurla keçib. Onlardan 124 nəfəri məscidlərdə müxtəlif vəzifələrə təyin olunublar. Müsahibədən keçənlərdən 63 nəfəri BİU-nu, 11-i BDU-nun İlahiyyat fakültəsini, 7-si Aİİ-ni, 15-i ƏİK-i, 7-si Xosrov İslam Mədrəsəsini bitirib, 9-u xaricdə, 12 nəfəri isə ölkənin digər dini təhsil müəssisələrində təhsil alıb.

Müsahibədən keçərək ehtiyat kadrlar siyahısına düşmüş 75 nəfərin (2-si qadın olmaqla) 47-si BİU-nun, 4-ü Aİİ-nin, 2-si BDU-nun İlahiyyat fakültəsinin, 2-si xarici ölkələrin dini təhsil müəssisələrinin, digərləri isə ölkədəki İslam kollecləri və mədrəsələrin məzunlarıdır. Qeyd edilən şəxslərdən 50 nəfəri 2023-cü ilin fevral ayında müsahibədən keçiblər. Onların yaxın günlərdə təyinatı həyata keçiriləcək.

**- Müsahibənin nəticələri ilə bağlı narazılıqlar olurmu? Şikayətlərə hansı qaydada baxılır?**

- Dövlət Komitəsi müsahibə proqramı hazırlayıb, müsahibə və attestasiya komissiyaları yaradıb. Həmin komissiyaların üzvləri Dövlət Komitəsi, Aİİ və QMİ-nin nümayəndələridir. İmtahanlarda şəffaflığı təmin etmək məqsədilə mətbuat və ictimaiyyət nümayəndələrinin iştirakına şərait yaradılır. Həmçinin qaydaya əsasən imtahan nəticələrindən şikayətlərə inzibati qaydada baxılması mümkündür. Apellyasiya Komissiyası bu ilin fevral ayında imtahan nəticələrindən şikayət edən 12 nəfərdən 2-sini haqlı hesab edib və onlara keçid balı verilib.

# QISA-QISA



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) ölkə ərazisində dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, din adı altında milli və dövlət maraqlarımıza zidd ideoloji təlimlərin yayılmasının qarşısının alınması, o cümlədən insanların mənəvi baxımdan sıx birləşməsi istiqamətində maarifləndirmə fəaliyyətini aprel ayı ərzində də davam etdirmişdir.

Cari ay ərzində bu qəbildən olan tədbirlər:

**3 aprel** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Samux rayon Yuxarı Ağasıbəyli kənd tam orta məktəbində "Dini radikalizmlə mübarizə" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi, Goranboy Rayon İcra Hakimiyyəti (RİH), rayon Gənclər və İdman İdarəsinin (GİI) birgə təşkilatçılığı ilə "Heydər Əliyev və azərbaycançılıq məfkurəsi" mövzusunda;

**4 aprel** – DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və Yardımlı GİI-nin birgə təşkilatçılığı ilə Yardımlı rayon Abı Nəcəfov adına Arus kənd tam orta məktəbində "Ulu Öndər Heydər Əliyev siyasətində tolerant və multikultural mühitin təşəkkül tapması" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala RİH, rayon GİI və Şəki-Zaqatala Regional Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə Z.Murtuzəliyev adına 1 №-li tam orta məktəbdə "Aprel döyüşləri: Böyük zəfərin müqəddiməsi" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi və Ucar rayonu GİI-nin birgə təşkilatçılığı ilə Ucarda "Aprel döyüşləri böyük zəfərin başlanğıcıdır" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Gəncə şəhər N.Hüseynov adına 38 nömrəli tam orta məktəbdə "Məktəblilərin mənəvi dünyagörüşünə təsir edən amillər" mövzusunda;

**5 aprel** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Samux rayon Alabaşlı qəsəbə tam orta məktəbində "Dini radikalizmlə mübarizə" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi və Quba-Xaçmaz Regional Təhsil İdarəsinin Siyəzən rayonu üzrə Təhsil Sektorunun birgə təşkilatçılığı ilə Siyəzən şəhər M.Müşviq adına 2 saylı tam orta məktəbdə "Uşaqların milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Balakən RİH və rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Balakən şəhəri İmadəddin Nəsimi adına 2 saylı tam orta məktəbdə "Multikultural cəmiyyətdə məzhəbçilik və dini təəssübkeşlik meyillərinin yaratdığı problemlər" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi, Ucar və Kürdəmir rayon icra hakimiyyətlərinin birgə təşkilatçılığı ilə "Zərərli vərdişlər, xurafatçılıq və dini radikalizm" mövzusunda Ucar şəhər 1 saylı liseydə, eləcə də Kürdəmir şəhər 3 saylı tam orta məktəbdə; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi və Saatlı "Gənclər evi" sosial xidmət müəssisəsinin birgə təşkilatçılığı ilə Saatlı şəhəri Valeri Əsgərov adına 4 nömrəli tam orta məktəbdə "Heydər Əliyev və azərbaycançılıq məfkurəsi" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Naftalan şəhərində "Dini radikalizmlə mübarizədə təhsilin rolu" mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Mingəçevir Şəhər İcra Hakimiyyətinin (ŞİH) birgə təşkilatçılığı ilə Mingəçevir şəhər Heydər Əliyev Mərkəzində "Aprel döyüşləri: böyük zəfərin müqəddiməsi" mövzusunda; İmişli rayonunda "Aprel döyüşləri: böyük zəfərin müqəddiməsi" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Goranboy rayonu Borsunlu kənd 1 saylı tam orta məktəbdə "Dini radikalizmin yaranma səbəbləri və fəsadları" mövzusunda;

**6 aprel** - DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qax rayon Zəyəm kənd tam orta məktəbində "Dini radikalizm və narkomaniyaya qarşı mübarizədə dini icmaların rolu" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Gəncə şəhər M.Ş.Vazeh adına 16 nömrəli tam orta məktəbdə "Yeniyetmə və gəncləri radikalizm və ekstremizm təhlükəsindən qoruyaq" mövzusunda;

**7 aprel** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Yevlax Rayon Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə "2016-cı ilin Aprel döyüşləri Vətən müharibəsində qazanılan Şanlı Zəfərin başlanğıcıdır" mövzusunda; DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi, Ombudsman Cənub Regional Mərkəzi, Masallı GİI, Rəhim Tağıyev adına Masallı Tarix-Diyarşünaslıq Muzeyinin birgə təşkilatçılığı ilə rayonun Əfqan Mirzəyev adına Qızlavar kənd tam orta məktəbində "İnsan alverinə qarşı mübarizədə təhsilin rolu" mövzusunda; DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsi və Şəki şəhəri 7 nömrəli məktəbin birgə təşkilatçılığı ilə "Dini radikalizm və onunla mübarizə yolları" mövzusunda; DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və rayon GİI-nin birgə təşkilatçılığı ilə Cəlilabad şəhər 9 saylı tam orta məktəbində "Dini radikalizmə qarşı mübarizədə təhsilin rolu" mövzusunda; Goranboy rayonu Qızılhacılı qəsəbə 2 saylı tam orta məktəbində "Radikalizmin mahiyyəti və fəsadları" mövzusunda;

**8 aprel** – DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, Lənkəran ŞİH və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Lənkəran bölgəsi üzrə qazılığının birgə təşkilatçılığı ilə "Xalqımızın tolerantlıq ənənələrinin və multikulturalizm siyasətinin milli həmrəyliyimizin möhkəmlənməsindəki önəmi" mövzusunda;

**10 aprel** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Goranboy rayonu Qızılhacılı qəsəbə 1 saylı tam orta məktəbdə "Dini radikalizmin mahiyyəti və fəsadları" mövzusunda;



**11 aprel** – DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi və Kürdəmir RİH-in birgə təşkilatçılığı ilə "Aprel döyüşləri: Böyük Zəfərin müqəddiməsi" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala RİH, Zaqatala rayon GİI və Şəki-Zaqatala Regional Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə Zaqatala rayonu Danaçı kəndi 1 №-li tam orta məktəbdə "Ulu Öndər Heydər Əliyev və milli-mənəvi dəyərlər" mövzusunda; Ədliyyə Nazirliyi Penitensiar Xidməti ilə DQİDK arasında 2023-cü il üçün təsdiq edilmiş birgə Tədbirlər Planı çərçivəsində 2 və 9 saylı cəzaçəkmə müəssisələrində "Ulu Öndər Heydər Əliyevin siyasəti və milli mənəvi dəyərlər" mövzusunda;

**12 aprel** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Ağdaş rayon GİI-nin birgə təşkilatçılığı ilə "Ulu Öndər Heydər Əliyev və azərbaycançılıq ideologiyası" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi, Ucar RİH və Rayon Polis Şöbəsinin birgə təşkilatçılığı ilə Ucar şəhər 6 saylı tam məktəbdə "Vətənpərvər gəncliyin zərərli vərdiş və dini radikalizmə qarşı mübarizəsi" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Samux rayonunun Sarıqamış kənd tam orta məktəbində "Radikalizmin mahiyyəti və fəsadları" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qax rayon Calayir kənd tam orta məktəbində "Dini radikalizmlə mübarizə" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Quba RİH və İnsan hüquqları üzrə Müvəkkilin Şimal regional Mərkəzinin təşkilatçılığı ilə "Heydər Əliyev və Azərbaycanda milli intibah dövrü: dini etiqad azadlığı hüququ, tolerantlıq və azərbaycançılıq" mövzusunda;

**13 aprel** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi,



Balakən rayonu "Gənclər evi" sosial xidmət müəssisəsi, Balakən RİH və Şəki-Zaqatala Regional Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə Balakən rayonu Əli Şirinov adına Qaravəli kənd tam orta məktəbində "Xalqımızın tolerantlıq ənənələrinin və multikulturalizm siyasətinin milli həmrəyliyimizin möhkəmlənməsindəki önəmi" mövzusunda; DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və Masallı RİH-in birgə təşkilatçılığı ilə "Gender bərabərliyi" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qubada "Narkomaniyanın fiziki, mənəvi və sosial fəsadları" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi və Kürdəmir RİH-in birgə təşkilatçılığı ilə Kürdəmir şəhər "Cümə" məscidində "Uşaqların doğulanadək cins seçiminin qarşısının alınmasında dini icmaların rolu" mövzusunda; Ucarda "Uşaqların təhsildən yayınması və baxımsızlığının qarşısının alınması" və "Ailələrdə məişət zorakılığı hallarının baş vermə səbəbləri" mövzularında; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi və Füzuli RİH-in birgə təşkilatçılığı ilə Horadiz şəhəri 1 saylı tam orta məktəbdə "Uşaqlara qarşı zorakılıq yolverilməzdir" mövzusunda;

**14 aprel** – DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi, Ucar RİH və Rayon Polis Şöbəsinin birgə təşkilatçılığı ilə Ucar rayonu Bərgüşad kənd 1 və 2 saylı tam orta məktəblərdə "Gəncləri radikal dini düşüncə və zərərli vərdişlərdən qoruyaq" mövzusunda; DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsi, Şəmkir RİH, Rayon Təhsil Sektoru və Rayon Polis Şöbəsinin birgə təşkilatçılığı ilə Zəyəm qəsəbə S.Məmmədov adına tam orta məktəbdə "Dini fanatizm, radikalizm və ekstremizmin mahiyyəti və təhlükələri" mövzusunda;

**17 aprel** – DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi və Ucar rayon GİI-nin birgə təşkilatçılığı ilə Ucar Gənclər Evində "Gənc nəslin tərbiyəsində Heydər Əliyev məktəbinin rolu" mövzusunda;

**18 aprel** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Samux rayon Qarayeri qəsəbə 2 saylı tam orta məktəbində "Dini radikalizmlə və fanatizmlə mübarizə" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi, Ucar RİH, Rayon Polis Şöbəsi və rayon GİI-nin birgə təşkilatçılığı ilə Ucar şəhər 5 saylı tam orta məktəbində "Zərərli vərdişlər və dini radikalizmin fəsadları" mövzusunda;

**19 aprel** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və İnsan Hüquqları üzrə Müvəkkilin Gəncə Regional Mərkəzinin birgə təşkilatçılığı ilə Samux rayonunda "Heydər Əliyev və insan hüquqları" mövzusunda; DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və Cəlilabad rayon GİI-nin birgə təşkilatçılığı ilə Cəlilabad rayonunun Göytəpə şəhəri Vasif Hüseynov adına 2 saylı tam orta məktəbdə "Dini radikalizmə qarşı mübarizədə təhsilin rolu" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Siyəzən RİH, İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) Şimal regional Mərkəzi, rayon GİI-nin təşkilatçılığı ilə "Ulu Öndər Heydər Əliyev və tolerantlıq, multikultural dəyərlər, azərbaycançılıq" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) Cənub Regional Mərkəzi və Lənkəran-Astara Regional Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə Lənkəran şəhəri Həzi Aslanov adına 3 saylı tam orta məktəbdə "Yeniyetmə və gəncləri radikalizm və ekstremizm təhlükəsindən qoruyaq!" mövzusunda;

**20 aprel** – DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsi, Hərbi Polis Bölməsi və Şəmkir RİH-in birgə təşkilatçılığı ilə rayonda "Milli-mənəvi dəyərlərimiz və hərbi qulluqçular arasında vətənpərvərlik ruhunun yüksəldilməsində dini dəyərlərin rolu" mövzusunda;

davamı səh. 11

# QISA-QISA

əvvəli səh. 10

DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsi və Şirvan "Gənclər Evi" Sosial Xidmət Müəssisəsinin birgə təşkilatçılığı ilə Şirvan şəhərində "Dini radikalizmə qarşı mübarizədə gənclərin rolu" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi və müvafiq qurumların birgə təşkilatçılığı ilə Ucar şəhər 2 saylı tam orta məktəbində "Narkomaniya, erkən nikah və dini radikalizmin təhlükələri", "Yeniyetmə və gənclər arasında təhlükəsiz reproduktiv sağlamlıq davranışlarının və sağlam həyat vərdişlərinin formalaşdırılması", Zərdabda isə "Vətənpərvərlik və milli-mənəvi dəyərlərimiz", "Tarixi abidələrimiz-milli kimliyimizdir" mövzularında; Qax rayonunun Baydarlı kənd tam orta məktəbində "Məişət zorakılığının qarşısının alınması və onunla mübarizə" mövzusunda; Zaqatala rayonu Aşağı Çardaxlar kənd tam orta məktəbində "Yeniyetmələr və gənclər arasında təhlükəsiz



reproduktiv sağlamlıq davranışlarının və sağlam həyat tərzi vərdişlərinin formalaşdırılması" mövzusunda; Balakən rayonu Talalar kənd 1 nömrəli tam orta məktəbində "Uşaqların humanizm və tolerantlıq ruhunda tərbiyəsinin mənəvi və psixoloji aspektləri" mövzusunda; Mingəçevir şəhərində yerləşən Ağdam rayon 51 saylı tam orta məktəbində "Məktəblilərin mənəvi dünyagörüşünə təsir edən amillər" mövzusunda; Masallıda "Erkən nikaha yox deyək" mövzusunda; Lənkəran şəhəri A.Məhərrəmov adına 7 saylı tam orta məktəbdə "Məktəblilərin mənəvi dünyagörüşünə təsir edən amillər" mövzusunda;

**25 aprel** – DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi, Şamaxı və Qobustan rayonlarının icra hakimiyyətləri və QMİ-nin bölgə qazılığının birgə təşkilatçılığı ilə Şamaxı şəhər "Cümə" məscidində "Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz" mövzusunda;

**26 aprel** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Gəncə şəhər "İmamzadə ziyarətgah" dini kompleksində "Milli-mənəvi dəyərlərin inkişafında Heydər Əliyevin rolu" mövzusunda;

**27 aprel** – DQİDK-nın və Müdafiə Nazirliyinin 2023-cü il üçün birgə fəaliyyət planına əsasən DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi və Beyləqan rayon "N" saylı hərbi hissənin birgə təşkilatçılığı ilə "Dini fanatizm, radikalizm və ekstremizmin mahiyyəti və təhlükələri" mövzusunda; Gəncə Şəhər İcra Hakimiyyətinin təşəbbüsü, DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi, YAP Gəncə şəhər təşkilatı, Azərbaycan və Gəncə Ağsaqqallar Şurasının birgə təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş regional konfrans; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala RİH, rayon Gİİ və Şəki-Zaqatala Regional Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə Zaqatala rayonu Muxax kənd 1 saylı tam orta məktəbində "Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020-2025-ci illər üçün Fəaliyyət Planı" çərçivəsində "Uşaqların vətənpərvərlik və milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi" mövzusunda;

**28 aprel** – DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi, Ucar RİH və Rayon Polis Şöbəsinin birgə təşkilatçılığı ilə Ucar rayonu Pirkənd kənd tam orta məktəbində "Erkən nikah və qohumlararası nikahın mənfi nəticələri" mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsi, Salyan RİH, rayon Heydər Əliyev Mərkəzi və Təhsil Sektorunun birgə təşkilatçılığı ilə Salyan rayonunda "Qızları təhsildən yayındırmağın hüquqi və mənəvi məsuliyyətləri" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Samux rayon Qarayeri qəsəbə 1 saylı məktəb liseydə "Multikultural cəmiyyətdə məzhəbçilik və dini təəssübkeşlik meyillərinin yaratdığı problemlər" mövzusunda; DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsi və mərkəzi "Cümə" məscidinin nəzdində fəaliyyət göstərən "Şəki mərkəzi qız Quran kursu"nun birgə təşkilatçılığı ilə "Dini məzhəbçilik meyillərinin milli birliyə və dini təhlükəsizliyə təsiri" mövzusunda; DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi, Yardımlı rayon Gİİ və Lənkəran-Astara Regional Təhsil İdarəsinin Yardımlı rayonu üzrə Təhsil Sektorunun birgə təşkilatçılığı ilə Yardımlı rayonu A.Nəcəfov adına Arus kənd tam orta məktəbində "Dini fanatizm, radikalizm və ekstremizmin mahiyyəti və təhlükələri" mövzusunda baş tutub.

DQİDK-nın bölgə şöbələrinin və digər qurumların əməkdaşlarının, rayonların dini icma sədrləri və din xadimlərinin, QMİ-nin səlahiyyətli nümayəndələrinin, o cümlədən orta məktəb direktorları, müəllimlər və şagirdlərin, hərbçilərin, ictimaiyyət nümayəndələri və gənclərin iştirakı ilə keçirilən tədbirlərdə bildirilib ki, Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi tarixi hadisədir. Ulu Öndər daim Azərbaycanın inkişafı naminə çalışıb, nəticədə ölkəmiz dünyanın aparıcı ölkələrindən birinə çevrilib. Ulu Öndərin böyük xilaskarlıq missiyasından danışan çıxışçılar vurğulayıblar ki, Heydər Əliyevin irəli sürdüyü azərbaycançılıq ideyası milli həmrəyliyi, bütövlüyü təmin edir, milli təəssübkeşlik və vətənpərvərlik hissini gücləndirir.

Çıxışlarda məktəblilərin mənəvi dünyagörüşünə təsir edən amillərdən, o cümlədən dini radikalizmin təsirlərindən bəhs olunub. Gənclərimizin vətənpərvərlik, dövlətçilik, milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda böyüdülməsinin vacibliyi vurğulanıb. Natiqlər həmçinin narkomaniyanın fəsadları və ölkəmizdə narkomaniyaya qarşı aparılan tədbirlərdən, radikalizmin yaranma, yayılma və inkişaf səbəbləri, onunla mübarizə metodları, radikalizmdən qorunma üsullarından, ölkəmizdə mövcud olan tolerantlıq ənənələrindən də danışıblar.

Tədbirlərdə Aprel döyüşləri ilə əlaqədar geniş söhbət aparılaraq xalqımıza qarşı törədilən bu cinayətlərin heç bir zaman unudulmayacağı qeyd edilib. Aprel



döyüşlərində əldə edilən uğurun İkinci Qarabağ müharibəsində zirvəyə çatdığı, Ulu Öndər Heydər Əliyevin davamçısı Müzəffər Ali Baş komandan Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə 44 gün davam edən Vətən müharibəsində rəşadətli Azərbaycan ordusunun xalqımıza qazandırdığı tarixi Zəfərin erməni ordusuna layiqli cavab olduğu vurğulanıb.

Qeyd olunub ki, hazırda dövlət siyasətinin prioritet istiqamətlərindən birini də milli-mənəvi dəyərlərə və tarixi-mədəni irsə bağlılığın möhkəmlənməsi, adət-ənənələrin qorunması, mədəni-tarixi abidələrin mühafizəsi, mənəvi irsin öyrənilməsi təşkil edir. Həmçinin vurğulanıb ki, Prezident cənab İlham Əliyevin başçılığı ilə dini sahəyə göstərilən diqqət və qayğı nəticəsində bu gün ölkəmizdə milli və dini dəyərlər, dövlət-din münasibətləri yüksək inkişaf səviyyəsinə çatmışdır.

DQİDK-nın sifarişi ilə çəkilən "Şəhadət", "Üfüqdəki gələcək", "Fitnə", "Aprel döyüşləri Zəfərin başlanğıcıdır", "Azərbaycan gəncliyi və mənəvi dəyərlər", "Həmrəyliyimiz, milli birliyimiz gücümüzdür" kimi sənədli filmlərin nümayiş olunduğu tədbirlərin sonunda iştirakçıların təklifləri dinlənilib, onları maraqlandıran suallar cavablandırılıb.

## BAŞ NAZİR YAPON MİLİTARİZMİNİN RƏMZİ SAYILAN YASUKUNİ MƏBƏDİNƏ İANƏ GÖNDƏRİB



Yaponiyanın yeni Baş naziri Fumio Kişida yapon militarizminin rəmzi hesab edilən Yasukuni məbədinə ianə göndərib.

Masakaki adlanan ianə məbədə yaz festivalının başlaması ilə əlaqədar göndərilib. Bununla yanaşı, Baş nazir F.Kişidanın məbədi şəxsən ziyarət edəcəyi gözlənilmir.

Sonuncu dəfə sabiq baş nazir Şinzo Abe 2013-cü ildə məbədi şəxsən ziyarət etmişdi. Bu ziyarət bir sıra Asiya ölkələri tərəfindən kəskin tənqidlə qarşılanıb.

Qeyd edək ki, Yasukuni məbədində XIX əsrin ortalarından başlayaraq Yaponiya uğrunda döyüşlərdə həlak olan əsgərlərin siyahısı saxlanılır. Burada, həmçinin II Dünya müharibəsində Yaponiyanın məğlub edilməsindən sonra edam edilən hərbi cinayətkarların da adları var. Məhz buna görə də Yaponiya rəsmilərinin həmin məbədi ziyarət etməsi bu ölkənin işğalçı siyasətinə bəraət qazandırılması kimi qiymətləndirilərək Çin, Cənubi Koreya və digər Asiya ölkələri tərəfindən kəskin tənqid edilir.

## KATOLİK VƏ PROTESTANTLAR PASXA BAYRAMINI QEYD EDİBLƏR



Aprelin 9-da katolik və protestantlar xristian dünyasının ən ali bayramı olan Pasxanı qeyd ediblər.

Pasxa bayramı günündə Vatikanın Müqəddəs Pyotr meydanında katoliklərin ruhani lideri Papa Fransisk ənənəvi "Urbi et Orbi" ("Romaya və dünyaya") bayram xeyir-duasını oxuyub, çıxış edib və Pasxa təbrikini çatdırıb.

Təxminən 45 min insanın meydandan izlədiyi mərasimdə Roma Katolik Kilsəsinin rəhbəri bu Pasxa bayramının da müharibə ilə qarşılandığını, bütün dünyada, xüsusilə Ukraynada sülhün bərqərar olmasının vacibliyini vurğulayıb. Pontifik müxtəlif qitələrdə terror, zorakılıq və qarşıdurma kimi hadisələrə son qoyulması barədə arzusunu ifadə edib.

Papa Fransisk sülhə daha çox ehtiyac duyulduğunu, sülhün hər kəs üçün zəruri və prioritet məsuliyyət olduğunu qeyd edib. O, Türkiyə və Suriyada şiddətli zəlzələdən zərər çəkənlər üçün dua edib, hər kəsi bu xalqlarla həmrəylik nümayiş etdirməyə çağırıb.

Bundan başqa İtaliya Prezidenti Sercio Mattarella Pasxa bayramı münasibətilə Papa Fransiskə təbrik məktubu göndərib. Sercio Mattarella məktubunda Rusiya-Ukrayna müharibəsi, dünyanın müxtəlif bölgələrini bürüyən böhran ssenariləri fonunda Roma Katolik Kilsəsinin rəhbərinin dialoqu və qarşılıqlı anlaşmanı, xalqlar arasında sülhü təbliğ edən çağırışlarının əhəmiyyətini vurğulayıb.

# DQİDK NÜMAYƏNDƏLƏRİ HƏRBİ QULLUQÇULARLA GÖRÜŞÜB

Respublikamızda 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamının icrası ilə əlaqədar Azərbaycan Ordusunda keçirilən tədbirlər davam etdirilir.

Tədbirlər çərçivəsində Şəxsi Heyət Baş İdarəsinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin hərbi qulluqçuları və Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin (DQİDK) bir qrup nümayəndəsinin iştirakı ilə Azərbaycan Ordusunda milli-mənəvi dəyərlərimizin təbliği, şəxsi heyətə vətənpərvərlik hissinin aşılanması məqsədilə azad edilmiş ərazilərdə hərbi qulluqçularla görüşlər keçirilib.

Görüşlərdə qeyd olunub ki, Ümummilli Lider Heydər Əliyev dövlət quruculuğu siyasətində hər zaman milli-mənəvi dəyərlərimizi yüksək tutub, adət-ənənələrimizin qorunub saxlanmasında misilsiz xidmətlər göstərib. Ulu Öndərin siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin apardığı uğurlu siyasət nəticəsində ölkəmizin dünyada islami, bəşəri milli-mənəvi dəyərlərə önəm verən və hörmətlə yanaşan, humanist, tolerant dövlət kimi tanındığı diqqətə çatdırılıb.

Keçirilən görüşlər zamanı şəxsi heyətlə "Dini ekstremizmlə mübarizədə hərbi qulluqçuların yeri və rolu" və digər mövzularda geniş söhbətlər aparılıb, həmçinin gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsi, onların zərərli vərdişlərdən qorunmasında milli-mənəvi dəyərlərimizin rolu və bu istiqamətdə həyata keçirilən maarifləndirmə tədbirlərinin əhəmiyyəti barədə ətraflı məlumat verilib.

Sonda hərbi qulluqçuları maraqlandıran suallar cavablandırılıb.



# AZƏRBAYCAN PRAVOSLAVLARI PASXA BAYRAMINI QEYD EDİBLƏR



Azərbaycanda yaşayan pravoslavlar əsas xristian bayramlarından olan Pasxanı qeyd ediblər.

Ölkənin bütün pravoslav məbədlərində Pasxa ibadətləri keçirilib.

Bayram ibadəti gecəyarısı – şənbə günündən bazar gününə keçən gecə Müqəddəs Miradaşıyan Qadınlar Kafedral Kilsəsində başlayıb. İbadətə gələnlər müqəddəs dini nəğmələrə qulaq asıb, şamlar düzüblər. Bayram ərəfəsində Azərbaycan Prezidenti İlham Əliyev pravoslav xristianları icmasına təbrik ünvanlayıb. Dövlət başçısı qeyd edib ki, dünyada multikulturalizmin ünvanlarından biri kimi tanınan müasir Azərbaycan Respublikasında bütün etnik və dini azlıqlara, o cümlədən xristian icmasına öz milli-mənəvi dəyərlərindən lazımınca faydalanmaq, adət-ənənələrini, dil və mədəniyyətini yaşatmaq üçün geniş imkanlar yaradılıb. "Təqdirəlayiq haldır ki, belə demokratik və tolerant mühitdə fəaliyyət göstərən pravoslav inanclı vətəndaşlarımız digər etiqadların mənsubları ilə birgə ictimai-siyasi həyatımızın bütün sahələrində yaxından iştirak edir, müstəqil dövlətimizin hərtərəfli inkişafına layiqli töhfələr verirlər", - deyə müraciətdə bildirilir.

Pasxa xristianların ən qədim, mühüm və sevimli bayramlarından biridir. Müqəddəs Pasxa Günü - İsa Məsihin Dirilməsi bayramı bu il pravoslav təqvimi ilə aprelin 16-da qeyd edilib. Ənənəyə görə, dindarlar cümə axşamı səhər kuliç bişirir, axşam pasxa hazırlayır, şənbə günü onları kilsəyə aparır, şənbə günündən bazar gününə keçən gecə isə Pasxanın və İsanın Dirilməsi bayramının başlanmasını bildirən Xaç yürüşü edirlər.

İsa peyğəmbərin Dirildiyi Müqəddəs Gün isə hamı pasxa süfrəsi arxasında əyləşir, bir-birini pasxa və kuliçə qonaq edir, yumurta döyüşdürür və "İsa Dirildi!" kəlməsi ilə bir-birini salamlayır.

***

Gəncədəki Aleksandr Nevski adına Rus Pravoslav kilsəsində də Pasxa bayramı qeyd edilib. Qərb bölgəsində yaşayan pravoslavlar gecədən məbədə toplaşıb, İsa Məsihin çarmıxa çəkilməsindən üç gün sonra dirilməsini qeyd ediblər. Mərasimlərdə Gəncə Şəhər İcra Hakimiyyəti və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Gəncə bölgəsi üzrə şöbəsinin nümayəndələri də iştirak ediblər. Bayram münasibətilə icra edilən ayinlərdən öncə Prezident İlham Əliyevin pravoslavlara ünvanladığı təbrik məktubu oxunub. Ölkəmizdə daimi sülh, əmin-amanlıq və xoşbəxtliyin hökm sürməsi arzulanıb, şəhidlərin ruhuna dualar edilib. Daha sonra Pasxa bayramında vacib sayılan bir sıra dini ayinlər icra edilib, şamlar yandırılıb, dualar oxunub. Gəncə Şəhər İcra Hakimiyyəti tərəfindən Nevski Rus Pravoslav Kilsəsinə bayram sovqatı göndərilib.

***

İmişlidə də Pasxa bayramı ilə əlaqədar rus icmasının nümayəndələri ilə görüş keçirilib. Görüş Yeni Azərbaycan Partiyası İmişli rayon təşkilatında gerçəkləşib. Görüşün sonunda rus icmasının nümayəndələrinə bayram sovqatı hədiyyə olunub.

# AZƏRBAYCANDA PESAX BAYRAMI QEYD OLUNUB

Respublikamızda yəhudilərin azadlıq və bahar mənasını verən Pesax bayramı qeyd edilib.

